HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№12 (602) ■ 4 aprel 2012 www.vergiler.az Qiyməti: 40 qəp.

# Qırğız Respublikasının Prezidenti Azərbaycana rəsmi səfər etmişdir



Martın 30-da Qırğız Respublikasının Prezidenti Almazbek Atambayev Azərbaycana rəsmi səfərə gəlmişdir. Prezident Almazbek Atambayevi və xanımı Raisa Atambayevanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva qarşılamışlar. Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Qırğız Respublikasının Prezidenti Almazbek Atambayev və xanımı Raisa Atambayeva ilə birgə görüşü olmuşdur. Sonra Prezidentlərin təkbətək görüşü keçirilmişdir. Görüşdə Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olunmuş, ölkələr arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi vurğulanmış, ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Azərbaycan Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Almazbek Atambayevin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur. Prezident İlham Əliyev bu səfərin ölkələrimizin və ikitərəfli münasibətlərimizin inkişafına verilən əhəmiyyətin çox yaxşı göstəricisi olduğunu vurğulayaraq qeyd etmişdir ki, bizim iqtisadi, enerji və əlbəttə ki, siyasi sahələrdə qarşılıqlı münasibətlərin gələcək inkişafına dair böyük planlarımız mövcuddur. Ümid edirəm ki, səfərin nəticələri çox uğurlu olacaq, ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaqdır. Qırğız Respublikasının Prezidenti Almazbek Atambayev isə ikitərəfli münasibətlərin inkişafından çox müsbət nəticələr gözlədiyini diqqətə çatdırmışdır.

Sonra Azərbaycan-Qırğızıstan sənədlərinin imzalanması mərasimi olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Almazbek Atambayev «Azərbaycan Respublikası Prezidentinin və Qırğız Respublikası Prezidentinin Birgə Bəyanatı»nı imzalamışlar. Bundan başqa, «Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Qırğız Respublikasının Narkotiklərə Nəzarət üzrə Dövlət Xidməti arasında narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qeyri-qanuni dövriyyəsi ilə mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş»,

«Azərbaycan Respublikası və Qırğız Respublikası arasında Azərbaycan Respublikasının Dünya Ticarət Təşkilatına qəbul olunması üzrə Protokol», «Azərbaycan Respublikası Hökuməti və Qırğız Respublikası Hökuməti arasında vergi qanunvericiliyinə riayət edilməsi məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş», «Azərbaycan Respublikası Hökuməti və Qırğız Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş» və «Azərbaycan Respublikası Hökuməti və Qırğız Respublikası Hökuməti arasında mülki müdafiə (mühafizə), fövqəladə halların qarşısının alınması və aradan qaldırılması sahəsində əməkdaşlıq haqqında Saziş» imzalanmışdır. Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Almazbek Atambayevin birgə mətbuat konfransı olmuşdur. Hər iki ölkənin dövlət başçıları bəyanatlarla çıxış etmişlər. Prezident İlham Əliyev bildirmişdir ki, Qırğız Respublikasının Prezidenti Almazbek Atambayevin səfəri ölkələrimiz arasında münasibətlərdə yeni səhifə açacaqdır. «Bu gün biz münasibətlərimizin inkişafının yeni mərhələsinə başlayırıq. Biz həmişə çalışmışıq ki, ölkələrimiz arasında münasibətlər dinamik və səmərəli inkişaf etsin». İndiyədək keçirilən görüşlərin münasibətlərimizin fəallaşmasına gətirib çıxardığını diqqətə çatdıran Prezident İlham Əliyev qeyd etmişdir ki, bu gün biz həm siyasi baxımdan, həm iqtisadi sahədə, həm də investisiya siyasətində münasibətlərimizin qarşıdakı onilliklər üçün inkişafının yollarını müəyyən edirik: «Bu gün biz münasibətlərimizin inkişafının əsas istiqamətlərini müəyyən etdik. Biz qarşılıqlı siyasi əlaqələri möhkəmlətməkdə davam edəcək, beynəlxalq təşkilatlarda fəal işləyəcək, bütün beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyəcək və beləliklə, birliyimizi daha da möhkəmlədəcəyik».

Qırğız Respublikasının Prezidenti Almazbek Atambayev isə bildirmişdir ki, qarşılıqlı münasibətlərin inkişafına güclü zəmin yaradan sənədlərin imzalanması sahəsində tərəflər arasında çox güclü əməkdaşlığın qurulmasına nail olmaq mümkündür. Yaxın vaxtlarda keçirilməsi nəzərdə tutulan hökumətlərarası komissiyanın iclasında energetika, investisiyalar, investisiya fondunun yaradılması və digər sahələrdə əməkdaşlığın qurulması ilə bağlı çox mühüm addımlar atılacaq: «Mən düşünürəm ki, münasibətlərimiz əslində tamam başqa mərhələyə keçir. Hər iki nümayəndə heyətinin üzvləri bunu danışıqlar zamanı gördülər. Mənə belə gəlir ki, Allahın köməyi ilə ölkələrimiz arasında tamamilə başqa münasibətlər yaranacaqdır və biz bu 20 il ərzində itirdiklərimizin əvəzini çıxacağıq».

Azərbaycan Respublikasına rəsmi səfəri çərçivəsində Qırğız Respublikasının Prezidenti Almazbek Atambayev və xanımı Raisa Atambayeva Heydər Əliyev Fondunda da olmuşlar. Ali qonağa və xanımına Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış Fondun məqsədi və fəaliyyəti barədə məlumat verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından ölkəmizdə rəsmi səfərdə olan Qırğız Respublikasının Prezidenti Almazbek Atambayevin və xanımı Raisa Atambayevanın şərəfinə rəsmi ziyafət verilmişdir. Mərasimdə çıxış edən Prezident İlham Əliyev bildirmişdir ki, hər iki xalqın əməkdaşlıq əlaqələrinin çoxəsrlik tarixi vardır. «Biz bir yerdə olmalıyıq. Bizim gücümüz birlikdədir» deyən Prezident İlham Əliyev bunun üçün hər iki ölkənin həm siyasi, həm də iqtisadi sahədə ümumi maraqlarının mövcud olduğunu diqqətə çatdırmışdır.

# Bakıda beşulduzlu «JW Marriott Absheron» oteli açılmışdır

Aprelin 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakıda «JW Marriott Absheron» otelinin açılışında iştirak etmişlər.

Dövlətimizin başçısı otelin rəmzi açılışını bildirən lenti kəsmişdir.

Azərbaycan Prezidenti və xanımı oteldə yaradılmış şəraitlə tanış olmuşlar.

Məlumat verilmişdir ki, köhnə «Abşeron» mehmanxanasının yerində tikilən yeni «JW Marriott Absheron» oteli dünya şöhrətli «Marriott International» şirkətinin ölkəmizdəki ilk otelidir. Bakıda beynəlxalq səviyyəli bu cür otellərin tikilməsi ölkəmizdə turizmin inkişafının istər yerli, istərsə də xarici şirkətlər üçün yaradılan əlverişli investisiya mühitinin bariz göstəricisidir.

Qeyd edilmişdir ki, oteldə otaqların layihələndirilməsi və tərtibatı zamanı Azərbaycanın təbiəti, memarlıq abidələri, eləcə də Xəzər dənizinin elementləri öz əksini tapmışdır. Oteldə yüksək kateqoriyalı «Executive studio», «Executive Deluxe», «Executive Premier» və «President luxe» də daxil olmaqla ümumilikdə 243 geniş otaq vardır.

Oteldə Şərq mətbəxinin təamlarının təklif edildiyi «Fireworks Oriental Kitchen», İtaliya mətbəxinin nümunələri olan «OroNero Bar&Ristorante» restoranları, «Razzmatazz Cocktail&Lounge» barı və «Zest Lifestyle» kafesi vardır. Burada, həmçinin Azadlıq meydanı tərəfdən xüsusi girişi olan restoranlar, bar və kafe fəaliyyət göstərir.

Bildirilmişdir ki, otelin binasının üst üç mərtəbəsini əhatə edən «Abşeron Spa» mərkəzində qonaqlar Bakının və Xəzər dənizinin füsunkar mənzərəsini seyr etmək imkanına malik olacaqlar. Mərkəzdə altı prosedur otağı, daxili hovuz, buxar otağı və sauna vardır.

Qeyd edilmişdir ki, işgüzar görüşlər və konfransların keçirilməsi üçün oteldə təbii günəş işığı ilə işıqlandırılan 13 iclas zalı vardır. Otelin mirvarisi hesab olunan 1208 kvadratmetrlik sütunsuz «Şərq» zalında böyük tədbirlərin, sərgilərin və digər mərasimlərin keçirilməsi üçün hər cür şərait yaradılmışdır.



Dövlətimizin başçısı otelin terrasında da yaradılmış şəraitlə tanış olmuşdur. Məlumat verilmişdir ki, otelin həyətindən bulvara çıxan yeraltı keçid də tikilir.

«JW Marriott Absheron» oteli Azərbaycanın böyük turizm potensialına malik olmasını və tezliklə respublikamızın dünyanın elit turizm mərkəzlərindən birinə çevriləcəyini bir daha təsdiqləyir.

Otelin işçiləri ilə görüşən Prezident İlham Əliyev açılışda çıxış etmişdir.

**rəsmi xronika**

## Əməkdaşlığın uğurlu inkişafı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Avropa İttifaqının genişlənmə və Avropa qonşuluq siyasəti üzrə komissarı Ştefan Fülenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluğun ifadə edildiyi görüşdə son illər ölkəmizdə bütün sahələrdə həyata keçirilən islahatların və əldə olunan iqtisadi inkişafın önəmi vurğulanmışdır.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında enerji, təhlükəsizlik və digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

## Qarşılıqlı tərəfdaşlığın göstəricisi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Avronest Parlament Assambleyasının həmsədri Kristian Vigeninin başçılıq etdiyi Avropa Parlamenti Assambleyası Bürosunun nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Avronest Parlament Assambleyasının böyük nümayəndə heyətinin ölkəmizə səfərindən məmnunluğunu bildirmişdir. Prezident İlham Əliyev Avronestin Avropadan kənarda ilk sessiyasının Bakıda keçirilməsini tərəfdaşlığımızın yaxşı göstəricisi kimi dəyərləndirmişdir. Avronest Parlament Assambleyasının ilə ölkəmizin əməkdaşlıq etməkdə maraqlı olduğunu deyən dövlətimizin başçısı nümayəndə heyətinin Azərbaycana səfəri çərçivəsində aparılacaq müzakirələrin əməkdaşlığımızın genişləndirilməsi baxımından səmərəli olacağına əminliyini ifadə etmişdir.

Avronest Parlament Assambleyasının həmsədri Kristian Vigenin böyük nümayəndə heyəti ilə Azərbaycana səfər etmələrinin əhəmiyyətini qeyd etmişdir. Kristian Vigenin bildirmişdir ki, Avronest nümayəndə heyətinin ölkəmizə səfəri təmsil etdiyi qurumun Azərbaycan ilə əməkdaşlığa verdiyi böyük önəmin göstəricisidir.

Görüşdə Avronest Parlament Assambleyasının Azərbaycan ilə Avropa Parlamenti və Avropa İttifaqı arasında əməkdaşlığın daha da genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminlik ifadə olunmuşdur.

## Azərbaycan Prezidenti İlham Əliyev Finlandiya nümayəndə heyətini qəbul etmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Finlandiya Respublikasının xarici işlər naziri Erkki Tuomioyanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Finlandiya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə genişləndirilməsi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

## Azərbaycan-Litva əlaqələri genişlənir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Litvanın xarici işlər naziri Audronyus Ajubalisin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan Respublikası ilə Litva Respublikası arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi vurğulanmış, əlaqələrimizin genişlənməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmi qeyd olunmuşdur. Görüşdə Azərbaycan-Avropa İttifaqı çərçivəsində Litva ilə əməkdaşlıq və digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

## Rusiya Federasiyasının nəqliyyat naziri Prezident İlham Əliyevin qəbulunda olmuşdur

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Rusiya Federasiyasının nəqliyyat naziri İqor Levitini qəbul etmişdir.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən nəqliyyat sahəsində uğurla inkişaf etdiyi vurğulanmış, Rusiya Federasiyasının nəqliyyat naziri İqor Levitinin Azərbaycana səfərinin bu sahədə əməkdaşlığın daha da genişləndirilməsi baxımından əhəmiyyəti qeyd olunmuşdur.

2 Hökumətlərarası Komissiyanın 2-ci iclası keçirilmişdir
3 IOTA-nın növbəti «Təlim Forumu» Azərbaycanda keçiriləcək
4 Səyahətə gedərkən necə sığortalanmalı?
5 «VISA» Vergilər Nazirliyi ilə əməkdaşlığa böyük önəm verir

# Hökumətlərarası Komissiyanın 2-ci iclası keçirilmişdir

***Aprelin 2-də Bakıda Azərbaycan Respublikası Hökuməti və Litva Respublikası Hökuməti arasında İkitərəfli Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 2-ci iclası keçirilmişdir.***




Komissiyanın həmsədrləri hər iki ölkənin qarşılıqlı əlaqələrinin inkişafında və ölkələrarası dostluq münasibətlərinin daha da dərinləşdirilməsində maraqlı olduqlarını, əlaqələrin inkişaf etdirilməsi üçün səy göstərildiyini, komissiyanın fəaliyyətinin qarşılıqlı faydalı əməkdaşlıqda vacib rol oynadığını qeyd etmişlər.

Tərəflər iki ölkə arasında siyasi, iqtisadi və humanitar əməkdaşlıq sahələrində ciddi irəliləyişlərə nail olunduğunu, yüksək səviyyəli qarşılıqlı səfərlərin baş tutduğunu və əlaqələrin inkişaf etdirilməsi üçün geniş hüquqi baza yaradıldığını bildirmişlər. Qeyd olunmuşdur ki, indiyədək təkcə iqtisadi sahədə 10-dan çox müxtəlif saziş imzalanmışdır. Tərəflər gələcək əməkdaşlıq sahələrini daha da genişləndirmək məqsədilə ticarət gəmiçiliyi, hava əlaqəsi, beynəlxalq avtomobil daşımaları, kənd təsərrüfatı, ətraf mühitin mühafizəsi, standartlaşdırma və metrologiya, elm, təhsil və texnologiya sahələrində əməkdaşlıq haqqında sənəd layihələrinin baxılması prosesinin sürətləndirilməsi barədə razılığa gəlmişlər.

İclasda iki ölkə arasında bütün sahələr üzrə münasibətlərin inkişaf etdirilməsi və daha da dərinləşdirilməsi məsələləri müzakirə olunmuşdur. Hər iki tərəfin müvafiq strukturlarını təmsil edən nümayəndələr investisiya mühiti, turizm potensialı, informasiya texnologiyaları və səhiyyə sahəsində aparılan islahatlarla bağlı təqdimatlarla çıxış etmişlər.

Azərbaycan və Litva arasında sənayenin müxtəlif sahələri üzrə müştərək istehsal müəssisələrinin yaradılması istiqamətində əməkdaşlığın əhəmiyyəti vurğulanmışdır. Xüsusilə, maşınqayırma, elektrotexnika, informasiya texnologiyaları və digər sahələrdə ikitərəfli əməkdaşlıq əlaqələrinin yaradılmasına dəstək verilməsi, qeyri-neft sənayesinin müxtəlif sahələrinə investisiya yatırılmasına köməklik göstərilməsi, Azərbaycan və Litva arasında enerji sektorunda əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyi vurğulanmışdır.

İclasda nəqliyyat sahəsində əlaqələrin inkişafı və bu sahədə hökumətlərarası sazişlərin imzalanması ilə bağlı məsələlər ön plana çəkilmişdir. Azərbaycan yüklərinin Litvanın Klaypeda dövlət dəniz limanı vasitəsilə daşınması, GUAM-a üzv ölkələrin tranzit potensialının həcminin artırılması məqsədilə TRACECA dəhlizi marşrutlarının uzadılması imkanları müzakirə edilmişdir.

Tərəflər rabitə və informasiya texnologiyaları sahəsində ikitərəfli əməkdaşlığın inkişafında maraqlarını ifadə etmiş, elektron hökumət və elektron imza sahəsində təcrübə mübadiləsinin aparılması üzrə razılıq əldə etmişlər.

İclasda Azərbaycan və Litva arasında kənd təsərrüfatı, mədəniyyət və turizm, səhiyyə, gənclər və idman sahəsində səmərəli əməkdaşlığın inkişaf etdirilməsi məsələləri də müzakirə edilmişdir.

Sonra Azərbaycan tərəfindən İkitərəfli Əməkdaşlıq üzrə Azərbaycan-Litva Hökumətlərarası Komissiyasının rəsmi saytının təqdimatı olmuşdur. Bir neçə ildə fəaliyyət göstərən sayt iki ölkənin sahibkarlıq subyektlərinin məlumatlandırılması, eləcə də ölkələrin investisiya imkanları barədə informasiyaların verilməsi işində maraqlı tərəflərə və sərmayəçilərə kömək məqsədilə yaradılmışdır.

İclasda Hökumətlərarası Komissiyanın Azərbaycan tərəfindən həmsədri, vergilər naziri Fazil Məmmədov çıxış edərək bildirmişdir ki, komissiyanın 2010-cu ildə Vilnüsdə keçirilən ilk iclasından sonra intensiv və məhsuldar iş aparılmış, əməkdaşlığın konkret istiqamətləri müəyyən edilmişdir. Fazil Məmmədov ölkələrimiz arasında ticarət dövriyyəsinin dinamikasının ölkələrimizin potensial imkanlarından az olmasını və onun gələcəkdə daha da artırılması və diversifikasiyası üçün iqtisadi əlaqələrin genişləndirilməsinin vacibliyini qeyd etmişdir.

Fazil Məmmədov Azərbaycan və Litva arasında beynəlxalq və regional təşkilatlar çərçivəsində sıx əlaqələr qurulduğunu vurğulayaraq, Avropa Qonşuluq Siyasəti, Avropa Birliyi Şərq Tərəfdaşlığı Təşəbbüsü çərçivəsində əməkdaşlığın uğurla həyata keçirildiyini də diqqətə çatdırmışdır.

Litva Respublikasının xarici işlər naziri, Hökumətlərarası Komissiyanın Litva tərəfindən həmsədri Audronius Ajubalis Azərbaycanın Avropanın enerji təhlükəsizliyi prosesinin fəal iştirakçısı olduğunu, öz ölkəsinin bu sahəyə, habelə qarşılıqlı investisiyalara maraq göstərdiyini bildirmişdir. Audronius Ajubalis iki ölkənin sahibkarları arasında intensiv əlaqələr qurulduğunu, 2011-ci ilin fevral ayında Litva sahibkarlarından ibarət nümayəndə heyətinin ölkəmizə, 2012-ci ilin mart ayında isə Azərbaycan iş adamlarından ibarət nümayəndə heyətinin Litvaya səfərlərinin, bu səfər zamanı Litvanın sənaye parklarının və Kaunas və Klaypedada yerləşən iqtisadi zonaların fəaliyyəti ilə bağlı təcrübə mübadiləsi aparılmasının bu prosesə təkan verəcəyinə ümid etdiyini söyləmişdir.

Audronius Ajubalis ötən müddətdə hər iki ölkənin şirkət və iş adamlarının müxtəlif sahələr üzrə təşkil olunan sərgilərdə iştirakının vacibliyini və əhəmiyyətini də vurğulamışdır.

Hökumətlərarası Komissiyanın iclasının nəticələri ilə bağlı tərəflər arasında Protokol imzalanmışdır. İclas başa çatdıqdan sonra həmsədrlər mətbuat nümayəndələrinin suallarını cavablandırmışlar.

Xatırladırıq ki, İkitərəfli Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın ilk iclası 2010-cu ildə Vilnüs şəhərində keçirilmişdir.

## Avropa Şurası Yerli və Regional hakimiyyətlər konqresinin nümayəndə heyəti ilə görüş



Aprel ayının 3-də Vergilər Nazirliyində Avropa Şurası Yerli və Regional hakimiyyətlər konqresinin nümayəndə heyəti ilə görüş keçirilmişdir. Vergilər nazirinin birinci müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Natiq Əmirov qonaqları salamlayaraq bildirmişdir ki, Azərbaycanla Avropa Şurası arasında parlamentlər, müxtəlif dövlət qurumları və qeyri-hökumət təşkilatları səviyyəsində fəal əməkdaşlıq mövcuddur və Vergilər Nazirliyi də bu prosesdə yaxından iştirak edir. O, vergi inzibatçılığının təkmilləşdirilməsi və elektron hökumət quruculuğu istiqamətində Vergilər Nazirliyinin gördüyü işlərə toxunaraq Azərbaycanın Avropa ölkələrinin qabaqcıl təcrübəsinin öyrənilməsinə xüsusi diqqət yetirdiyini vurğulamışdır.

Avropa Şurasının yerli demokratiya məsələləri üzrə məruzəçisi Jos Viennen Azərbaycana səfərin məqsədinin Avropa Xartiyasından və Konqresin Azərbaycan hökumətinə ünvanladığı tövsiyələrdən irəli gələn öhdəliklərin icrası səviyyəsinin monitorinqindən, həmçinin son illərdə yerli özünüidarənin inkişafı sahəsində ölkədə baş verən dəyişikliklərlə tanışlıqdan ibarət olduğunu bildirmişdir.

Sonra Azərbaycanda bələdiyyə qanunvericiliyi, bələdiyyələrin maliyyə müstəqilliyi və gəlirlərinin əsasları, yerli vergilərin toplanması mexanizmləri, bələdiyyə vergiləri və uçot, bələdiyyələrin idarəetmə sahəsindəki xüsusiyyətləri, Naxçıvan Muxtar Respublikasında yerli özünüidarə orqanları ilə bağlı həyata keçirilən pilot layihələr və s. ətrafında fikir mübadiləsi aparılmışdır.

Tədbirdə Vergilər Nazirliyinin rəhbər vəzifəli şəxsləri, Avropa Şurası Yerli və Regional hakimiyyətlər konqresinin Monitorinq komitəsinin katibi Stefani Piorel, regional demokratiya məsələləri üzrə məruzəçi Gurdun Mosler-Tornstorm, konqresin məsləhətçisi Zoltann Szente iştirak etmişlər.

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 89-cu İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ MAGİSTRANTLAR ÜÇÜN
II RESPUBLİKA REFERAT MÜSABİQƏSİ

Azərbaycan Respublikası Vergilər Nazirliyinin «Azərbaycanın vergi jurnalı» magistrantlar arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünə həsr olunmuş «Vergi siyasəti və modernləşən iqtisadiyyat» mövzusunda referat müsabiqəsi elan edir. Müsabiqəyə təqdim olunacaq referatların mövzusu aşağıdakı istiqamətlərdən birinə aid olmalıdır:

1. *Vergi sistemləri və vergitutmanın nəzəri problemləri*
2. *Vergi siyasəti və vergidən yayınma ilə mübarizənin dünya təcrübəsi*
3. *Azərbaycanın vergi sistemi və vergi siyasəti*

Müsabiqənin qalibləri aşağıdakı qaydada mükafatlandırılacaqlar:

I yer - 300 manat;
II yer - 200 manat;
III yer - 100 manat.

Müsabiqəyə referatlar, həcmi 30 min işarədən çox olmamaqla, çap və elektron variantlarda *(diskdə, Times New Roman şriftində)* 2012-ci il aprelin 20-dək, rəsmi iş günlərində saat 10.00-dan 18.00-dək «Azərbaycanın vergi jurnalı»nın redaksiyasında *(Bakı şəhəri, L.Landau küç., 16., Vergilər Nazirliyinin binası)* və ya elektron poçtla info@vergijurnali.az, ehm@rambler.ru və e.bagirzade@gmail.com ünvanlarında qəbul edilir.
Nəticələr 2012-ci il may ayının 2-də elan ediləcəkdir. Müsabiqədə iştirak etmək istəyənlər referatların yazılması üçün müvafiq metodiki göstərişi http://www.anl.az/el/m/mt.pdf internet ünvanından əldə edə bilərlər.

Əlavə məlumat üçün əlaqə telefonları: Tel.: (994 12) 403 88 56; (994 12) 403 87 87

## «Azərbaycanın vergi jurnalı»nın birinci nömrəsi çapdan çıxmışdır

**Vergilər Nazirliyinin resenziyalı elmi nəşri olan «Azərbaycanın vergi jurnalı»nın 1-ci nömrəsi çapdan çıxmışdır. Bu ildən jurnal yeni adla iki ayda bir dəfə 212 səhifə həcmində 2 min nüsxə tirajla nəşr ediləcəkdir.**

Jurnalın baş redaktoru, iqtisad elmləri doktoru, professor Elşən Hacızadə bu nömrədə dərc edilmiş «Oxuculara müraciət»də nəşrin adının və dövriliyinin dəyişdirilməsinin, tirajının artırılmasının səbəbləri barədə ətraflı söz açmışdır. Qeyd etmişdir ki, dəyişikliklər və yeniliklər jurnalı təkcə respublikamızda deyil, onun hüdudlarından kənarda, beynəlxalq elmi dairələrdə də yaxından tanıtdırmaq və jurnalın yüksək reytinqli elmi bazalar tərəfindən indeksləşdirilməsinə nail olmaq məqsədi daşıyır.

Jurnalın yeni nömrəsində də ənənəvi rubrikalar öz yerini tutur. «Rəsmi» rubrikasında Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2011-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2012-ci ildə qarşıda duran vəzifələrə həsr olunan iclası barədə qısa hesabat, həmçinin, dövlətimizin başçısının «Baku Expo» Mərkəzində «Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasının üçüncü ilinin yekunlarına həsr olunmuş konfransdakı çıxışının yığcam icmalı verilmişdir.

«Müsahibə» rubrikasında vergilər naziri, 2-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədovun «Biz Azərbaycanda partnyorluq, qarşılıqlı faydalara söykənən dövlət-biznes münasibətləri qurmağa çalışırıq» sərlövhəli müsahibəsi dərc edilmişdir. Bu müsahibəni bir sıra xarici KİV də dərc etmişdir.

Jurnalda Vergilər Nazirliyinin yaradılmasının 12-ci ildönümünə həsr edilmiş materiallara geniş yer verilmişdir. Bu baxımdan, fevral ayının 9-da «Azərbaycanın vergi sistemi: reallıqlar və perspektivlər» mövzusunda keçirilmiş Vergi Forumu haqqında geniş hesabat diqqəti cəlb edir.

Beynəlxalq Antikorrupsiya Akademiyasının nümayəndə heyətinin ölkəmizə səfəri, Vergilər Nazirliyində onlarla keçirilən görüş və nazirliyin Şamaxıdakı Tədris Mərkəzində «Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizə: nailiyyətlər və perspektivlər» mövzusunda təşkil olunan konfrans, həmçinin, «Şəffaflıq və müasir texnologiyaların tətbiqi səmərəli vergi inzibatçılığının əsasıdır» mövzusunda nazirlikdə aparılan ictimai müzakirələr barədə məlumatlarla da oxucular bu nömrədə tanış ola biləcəklər.




Nömrədə bir necə qanunvericilik sənədi, o cümlədən «Azərbaycan Respublikası Vergilər Nazirliyinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında», «Azərbaycan Respublikası Vergilər Nazirliyinin əməkdaşlarının təltif edilməsi haqqında» ölkə Prezidentinin sərəncamları dərc edilmişdir.

Milli iqtisadiyyatımızın təhlükəsizlinin təmin edilməsində mühüm rolu olan Azərbaycan gömrüyünün yaradılmasının bu il 20 ili tamam olmuşdur. Jurnal bu münasibətlə öz səhifələrində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevin «Müstəqil Azərbaycanın gömrük xidməti dinamik inkişaf yolu ilə uğurla addımlayır» adlı məqaləsini oxucuların diqqətinə təqdim edir.

Jurnalın daimi müəlliflərindən olan, Azərbaycan Dövlət İqtisad Universitetinin «İqtisadi nəzəriyyə-1» kafedrasının müdiri, i.e.d., prof., əməkdar müəllim Əlican Babayevin «Milli ideya: davamlı iqtisadi inkişafın hərəkətverici qüvvəsi» məqaləsini isə jurnal «Aktual» rubrikasında yerləşdirmişdir.

Jurnalın elmi məqalələr blokunda bu dəfə iqtisadiyyatın müxtəlif sahələrini əhatə edən tədqiqatların nəticələrinin əks olunduğu elmi məqalələr yerləşdirilmişdir. Bunlar - AMEA-nın müxbir üzvü, i.e.d., prof. A.Musayevin «İnnovasiya sisteminin stimullaşdırılması şəraitində vergi güzəştlərinin səmərəliliyinin qiymətləndirilməsi», i.e.d., prof. İ.Alıyevin və i.e.f.d., dos. S.Səməndərovun «Klassik islam mədəniyyəti sistemində ictimai-iqtisadi problemlərin həlli: İmam Əli ibn Əbu Talibin fikir və mühakimələrinin təhlili», i.e.f.d. P.Rzayevin «İqtisadiyyatın dövlət tənzimlənməsində vergi siyasətinin rolu», i.e.f.d., dos. R.Məhərrəmovun «Bələdiyyə vergiləri: nəzəriyyə və praktika», ADİU-nun dissertantları - E.Bağırzadənin «Gizli (qeyri-rəsmi) iqtisadiyyatın kəmiyyət qiymətləndirməsi: obyektiv zərurilik və metodoloji yetərsizlik», S.Hümbətovanın «Azərbaycanın davamlı iqtisadi inkişafında iqtisadi təhlükəsizliyin təmin olunması məsələləri», F.Mürşüdlünün «Xarici iqtisadi fəaliyyətin bank xidmətinin beynəlxalq praktikası: iqtisadi-hüquq aspekt», AzETKTİTİ-nin dissertanti T.Qurbanovanın «Aqrar sahədə kreditləşmənin səmərəliliyinin yüksəldilməsi istiqamətləri» və ADİU-nun magistrantı O.Əhmədovun «Azərbaycanda dövlət xərclərinin maliyyələşdirilməsində vergi gəlirlərinin rolu və inkişaf dinamikası» başlıqlı məqalələridir.

«Yeni nəşrlər» rubrikasında Nazirlər Kabineti Aparatının Sənaye və energetika şöbəsinin müdiri, t.e.f.d. S.İsmayılovun «Azərbaycanın qeyri-neft sənayesinin inkişafında yeni mərhələ» (Bakı. Elm, 2011) adlı elmi-tədqiqat əsəri haqqında jurnalın baş redaktoru, i.e.d., prof. Elşən Hacızadənin qeydləri dərc edilmişdir.

Jurnal «Elm korifeyləri» rubrikasında oxuculara 1986 və 1987-ci illərdə Nobel mükafatına layiq görülmüş Amerika iqtisadçıları Ceyms Byukenen və Robert Solounun həyatı və elmi yaradıcılığı barədə məlumat verir.

Bu nömrədə jurnal «İqtisadi terminlər lüğəti»nin dərcini də davam etdirmiş, həmçinin üç dildə «Müəllif qaydaları»nı çap etmişdir.

# IOTA-nın növbəti «Təlim Forumu» Azərbaycanda keçiriləcək

21-23 mart tarixində İtaliyanın Roma şəhərində Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) və İtaliyanın Gəlir Agentliyinin təşkilatçılığı ilə «Dəyişikliklər, problemlər və imkanlar» mövzusunda 9-cu Təlim Forumu keçirilmişdir. 30 dövlətin vergi orqanlarından 52 nümayəndənin iştirak etdiyi tədbirdə vergi administrasiyalarının təlim-tədris proqramlarının icra vəziyyəti, kadrların hazırlanması və inkişafı, vəzifələrin icrasında keyfiyyətin və səmərəliliyin təmin edilməsi, təlimin müasir formada təşkil olunması və müasir biliklərin genişləndirməsi və digər məsələlər müzakirə olunmuşdur. Forumun başlıca mövzusu IOTA-nın illik texniki iş proqramı çərçivəsində həyata keçirilən təlim-tədris prosesində yeni strateji istiqamətlər və yanaşmalarla bağlı olub. IOTA-nın ekspertləri ilə vergi orqanlarının vəzifəli şəxsləri arasında nəzərdə tutulmuş təlim məsələləri barədə geniş müzakirələr aparılmış və təcrubə mübadiləsi edilmişdir.

İtaliyanın Gəlir Agentliyinin İnsan Resursları Departamentinin direktoru Girolamo Pastorello və IOTA-nın eksperti Cerri Taylor IOTA-nın 2013-cü il üçün iş planını təqdim etmişlər. Məruzəçilər təlim prosesində tətbiq edilən yeni informasiya texnologiyaları (Web 2.0), sosial şəbəkələr, ayrı-ayrı ölkələrdə istifadə edilən yeni metod və üsullar və yaxşı təcrübələr barədə məlumat vermişlər.

Tədbirdə Azərbaycanı vergilər nazirinin Beynəlxalq münasibətlər və vergi ödəyicilərinə xidmət sahələri üzrə müşaviri Ələkbər Məmmədov və Beynəlxalq münasibətlər idarəsinin rəis müavini İlqar Əkbərli təmsil etmişlər. «Azərbaycan Respublikası Vergilər Nazirliyinin Təlim Strategiyası» mövzusunda təqdimatla çıxış edən Ə.Məmmədov ölkəmizin vergi sistemində aparılan islahatlar, elektron xidmətlər, təlim prosesi, tətbiq edilən təlim metodları barədə ətraflı təqdimat etmişdir. Təqdimatda Azərbaycanın Vergilər Nazirliyinin strateji məqsədlərindən birinin vergi orqanlarının tədris prosesi ilə bağlı olduğu qeyd edilmişdir. Nazirliyin 10 il əvvəl yaradılmış elm və təhsil ocağı statusuna malik Tədris Mərkəzində vergi orqanları əməkdaşlarının peşə hazırlığı, yenidən hazırlanması və ixtisaslarının artırılması, vergi sisteminin formalaşdırılması, inkişafı və hüquqi təminatına dair araşdırmalar, kadr siyasəti ilə bağlı təkliflərin işlənib hazırlanması, vergi sisteminin formalaşdırılması, inkişafı və hüquqi təminatına dair elmi tədqiqatların aparılması ilə bağlı sistemli tədbirlər həyata keçirilir. Mərkəzdə ixtisasartırma və ilkin hazırlıq kursları ənənəvi, kombinə edilmiş və elektron təhsil sistemi tətbiq edilməklə təşkil olunur. Son illərdə vergi orqanlarının təlim və tədrisinə, müasir dövrün tələblərinə uyğun kadr hazırlığına böyük əhəmiyyət verir, onların bilik və bacarıqlarının artırılması, tədris prosesində yeni texnologiyaların tətbiq olunması, sosial şəbəkələrdə, ayrı-ayrı ölkələrdə təlim prosesində istifadə edilən yeni metod və üsulların öyrənilməsi ilə əlaqədar treninqlər və seminarlar keçilir, kurslar təşkil olunur. Bu isə son nəticədə vergi orqanlarının ən müasir tədris üsullarını və informasiya texnologiyalarını mənimsəməsinə və bunun idarəetmədə tətbiq edilməsinə səbəb olur.

Forumda bildirilmişdir ki, son bir ildə vergi orqanı əməkdaşlarının təlim-tədris prosesi ilə bağlı Avropada ən müasir və tədris üçün bütün tələblərə cavab verən mərkəzləşdirilmiş 3 böyük elm və təhsil müəssisəsi yaradılmışdır. Onlar İtaliyanın Ferrara şəhərindəki Təlim Mərkəzi, Avstriyanın Vyana şəhərində yerləşən Vergi Administrasiyasının Tədris Korpusu və Azərbaycanın Şamaxı rayonundakı Tədris Mərkəzidir. Forum iştirakçılarına Vergilər Nazirliyinin Şamaxı rayonunda yerləşən Təlim Mərkəzinin rəsmi açılışı və fəaliyyətini əks etdirən film nümayiş olunmuşdur.

Tədbirdə IOTA-nın 2013-cü ildə növbəti «Təlim Forumu»nun Azərbaycanda keçirilməsi təklif edilmiş, iştirakçılar təklifi yekdilliklə dəstəkləmişlər.

**E.CƏFƏRLİ**



qanunçuluq

# İcarə haqlarının vergiyə cəlb olunması təkmilləşdirilir

***Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumu Azərbaycan Respublikası Vergi Məcəlləsinin 14-cü və Azərbaycan Respublikası Mülki Məcəlləsinin 390-cı maddələrinin şərh edilməsinə dair 12 mart 2012-ci il tarixli Qərar vermişdir***

Azərbaycan Respublikasının Vergilər Nazirliyi (VN) 28 sentyabr 2011-ci il tarixli məktubla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müraciət edərək, Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (VM) 14-cü, 67-ci və 124.4-cü maddələrinin Azərbaycan Respublikasının Mülki Məcəlləsinin (MM) 152.1, 390.1, 390.5 və 390.6-cı maddələrinə münasibətdə tətbiq edilməsinin mümkünlüyü barədə rəsmi şərh verilməsi üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu verilməsini xahiş etmişdir. Qeyd edilən maddələrin tətbiqi ilə bağlı rəsmi şərh verilməsinin zəruriliyi bir sıra hallardan irəli gəlmişdir:

1. Bəzi vergi ödəyiciləri icarə müqavilələrində icarə haqqının məbləğini həqiqətdə olduğundan xeyli az göstərməklə vergidən yayınır, bəzi hallarda isə obyektlər müqavilə olmadan icarəyə verilir və hər hansı icarə haqqının ödənilməsi ilə bağlı tərəflər arasında sənəd tərtib edilmir;

2. İcarə haqqının müqavilədə aşağı məbləğdə göstərildiyi və ya obyekt müqavilə olmadan istifadəyə verildiyi hallarda, vergi orqanları tərəfindən vergilər VM-in 14-cü maddəsinə müvafiq olaraq bazar qiymətlərindən və ya 67-ci maddəsinə müvafiq olaraq əlaqəli məlumatlardan istifadə edilməklə hesablanır;

3. Qeyd olunan əsaslarla barələrində əlavə vergi hesablanması aparılmış bəzi vergi ödəyiciləri vergi orqanlarının aktlarını məhkəmə qaydasında mübahisələndirirlər ki, bir çox hallarda da məhkəmələr tərəfindən onların iddiaları təmin edilir və bu zaman məhkəmələr MM-in 152.1, 390.1, 390.5 və 390.6-cı maddələrinə istinad etməklə tərəflərin müqavilənin bağlanmasında, müqavilə şərtlərinin (o cümlədən icarə haqqının) müəyyən edilməsində müstəqil olmalarına əsaslanırlar;

4. Qanunvericilik aktları arasında mütənasibliyin və sistemliliyin, vergi qanunvericiliyinin bərabər və ədalətli tətbiqinin təmin edilməsi və vergi ödəyiciləri ilə vergi orqanları arasında məhkəmə mübahisələrinin (həmin mübahisələrə baxılması aylarla davam edir ki, bu da həm vergi ödəyicilərinin, həm də vergi orqanlarının fəaliyyətinə maneçilik törədir) həllinin zəruriliyi.

Yuxarıda qeyd edildiyi kimi, hazırda icarə haqları məhz vergidən yayınma məqsədilə müqavilələrdə bir neçə dəfə aşağı məbləğdə göstərilir ki, bununla külli miqdarda vergi dövlət büdcəsindən yayındırılır. Məsələn, məhkəmədə mübahisələndirilən işlərdən biri üzrə Bakı şəhəri, Bülbül prospekti 53 ünvanında yerləşən ikimərtəbəli binanın 1-ci mərtəbəsindəki 29,3 kv.m qeyri-yaşayış sahəsi 60 manata (hər kvadratmetri 2 manata), Bakı şəhəri, S.Vurğun küç., 35 ünvanında yerləşən ikimərtəbəli binanın 1-ci mərtəbəsindəki 48,7 kv.m qeyri-yaşayış sahəsi 100 manata (hər kvadratmetri 2 manata) icarəyə verilmişdir.

Digər məhkəmə işi üzrə Bakı şəhəri, Azadlıq pr., 70 ünvanında yerləşən 30 kv.metr qeyri-yaşayış sahəsi 7 manat 50 qəpiyə (hər kv.metri 25 qəpiyə), Bakı şəhəri, Atatürk pr., 41/47 ünvanında yerləşən 320 kv.metrlik qeyri-yaşayış sahəsi 800 manata (hər kv.metri 2 manat 50 qəpiyə) icarəyə verilmişdir.

Dövlət Statistika Komitəsinin rəsmi məlumatına əsasən, kirayəvermə xidmətinin adambaşına düşən həcmi 2009-cu ildə 0,27 manat olduğu halda, 2010-cu ildə 0,33 manat olmuşdur. Əhaliyə göstərilən məişət xidmətlərinin strukturunda isə kirayəvermə xidməti 2009-cu ildə 2387,6 min manat olduğu halda, 2010-cu ildə 2976,4 min manat olmuşdur. Bu ona dəlalət edir ki, qeyd olunan sahə mühüm vergitutma obyektlərindən (vergi mənbələrindən) biridir və bu sahəyə ciddi yanaşma tələb olunur.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun 18 mart 2012-ci il tarixdə qüvvəyə minən Qərarına (Plenum Qərarı) əsasən:

- VM-in 14-cü maddəsində nəzərdə tutulmuş bazar qiymətinin əmlakın icarəyə verilməsindən əldə olunan gəlirə verginin hesablanması məqsədilə tətbiqi MM-in 152.1 və 390-cı maddələrində təsbit edilmiş mülkiyyət hüququnu və müqavilə azadlığını pozmur;

- VM-in 14-cü maddəsinə əsasən, bazar qiyməti vergi orqanı tərəfindən həmin maddədə təsbit olunmuş tələblərə və mərhələlərə riayət edilməklə, o cümlədən ekspertiza təyin olunmaqla müəyyən olunur.

Plenum Qərarında qeyd edilmişdir ki, MM-in 2.5-ci maddəsinə əsasən, əgər qanunvericilikdə ayrı qayda nəzərdə tutulmayıbsa, mülki qanunvericilik və başqa hüquqi aktlar vergi münasibətlərinə tətbiq edilmir. Bundan əlavə, VM-in 2.3-cü maddəsi müəyyən edir ki, vergi qanunvericiliyi aktları ilə digər sahə qanunvericilik aktları arasında, VM-in 2.7-ci maddəsində nəzərdə tutulan hallar istisna olmaqla, vergitutma və vergi nəzarəti məsələləri üzrə ziddiyyət yarandıqda vergi qanunvericiliyinin aktları tətbiq edilir. VM-in 14.6.1.8-ci maddəsində «xidmət» anlayışına icarə daxil edilməklə bu sahəyə də bazar qiymətinin tətbiqi mümkün edilmişdir. Bazar qiymətinin nəzərə alınması ilə vergilərin hesablanması VM-in 14.3-cü maddəsi ilə tələb edilir. Həmin norma bazar qiymətinin tətbiqinin əsası kimi bir neçə konkret halı, o cümlədən təsərrüfat əqdlərinin qarşılıqlı surətdə asılı olan şəxslər arasında həyata keçirilməsini və ya 30 gün ərzində vergi ödəyicilərinin eyni xüsusiyyətli və ya eyni cinsli mallara (işə, xidmətə) tətbiq etdikləri qiymətlərin səviyyəsinin 30 faizdən çox (aşağı və yuxarı) dəyişməsini müəyyən edir.

«İnsan hüquqları haqqında Ümumi Bəyannamə»nin 29-cu maddəsinin 2-ci bəndi, «İqtisadi, sosial və mədəni hüquqlar haqqında» Beynəlxalq Paktın 8-ci maddəsinin 1 «a» yarımbəndi və «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Konvensiyanın 1 saylı Protokolunun 1-ci maddəsi də ümumi rifah tələblərinin ödənilməsi, başqalarının hüquq və azadlıqlarının, eləcə də ümumi marağın qorunması məqsədilə müqavilə azadlığının məhdudlaşdırılmasını mümkün edir. Sonuncu müddəa ilə bağlı İnsan Hüquqları üzrə Avropa Məhkəməsi bildirmişdir ki, «ümumi maraq» anlayışı zəruri olaraq genişdir və Tərəf Dövlətlər öz vergi siyasətlərini formalaşdırmaq və təşkil etmək, eləcə də vergilərin ödənilməsini təmin etmək üçün hazırlıq görmək məqsədilə müəyyən mülahizə sərbəstliyinə malikdirlər.

Mövzunu qəzetimizin gələn buraxılışında davam etdirəcəyik.

**Hüquq idarəsi**



Akif Musayev
Azərbaycan Respublikası Vergilər Nazirliyinin
Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi

## Rakurs

### Könüllü vergi ödəmələri

Vergi anlayışının fəlsəfəsində bir icbarilik, yəni məcburilik var. Təsadüfi deyil ki, Vergi Məcəlləsində vergi anlayışı maddəsində yazılıb ki, vergi dövlətin və bələdiyyələrin fəaliyyətinin maliyyə təminatı məqsədilə vergi ödəyicilərinin mülkiyyətində olan pul vəsaitlərinin özgəninkiləşdirilməsi şəklində dövlət büdcəsinə və yerli büdcələrə köçürülən məcburi, fərdi, əvəzsiz ödənişdir. Göründüyü kimi, icbarilik özünü bu anlayışda tam ehtiva edir.

Bütün dövrlərdə vergilərin ödənilməsi və toplanmasında çox böyük çətinliklər olub, cəza tədbirləri tətbiq edilib. Buna baxmayaraq, vergidən yayınma hallarına həmişə təsadüf olunub və olunmaqdadır. Bunun iki cür forması var. Birincisi, vergi qanunvericiliyindəki boşluqlardan istifadə olunmaqla meydana çıxan yayınma. İkincisi, vergi qanunvericiliyinin tələblərinin pozulması yolu ilə. Təcrübə göstərir ki, təkcə inzibatçılıq, cəzalandırma yolu ilə vergilərin toplanması səviyyəsini yüksəltmək heç də asan deyil. Məhz buna görə də vergilərin könüllü ödənilməsi səviyyəsinin artırılması ilə bağlı həm beynəlxalq səviyyədə, həm də Azərbaycanda çoxlu işlər görülür.

Könüllü əməletmə nədir? Könüllü əməletmə ödəyicilərin öz vergi öhdəliklərini vaxtında yerinə yetirməsidir. Bunun müxtəlif formaları və mərhələləri var. Könüllü əməletmənin əsas elementlərindən biri vergi ödəyicilərinin öhdəliklərini, yəni bəyannamələri vaxtında təqdim etmələridir.

Könüllü vergi ödəmələrinin səviyyəsini artırmaq üçün, ilk növbədə, ədalətliliyin təmin olunması, diskriminasiyaların aradan qaldırılması, inzibatçılığın təkmilləşdirilməsi çox vacib şərtdir. Hətta ən yaxşı vergi qanunvericiliyi, vergi dərəcələrinin və sayının aşağı olması belə ağır vergi inzibatçılığı şəraitində istənilən nəticənin əldə olunmasına imkan vermir. Ona görə də vergi ödəyəcilərinin öz vergi öhdəliklərini asan və rahat yerinə yetirməsi üçün vergi qanunvericiliyi və inzibatçılığı yüksək səviyyədə təmin olunmalıdır. Digər əsas istiqamətlərdən biri vergi ödəyicilərinin maarifləndirilməsidir, xüsusilə də, onlarda iqtisadi biliklərin səviyyəsinin artırılmasıdır. Eyni zamanda, vergi ödəyicilərinin vaxtında məlumatlandırılması ən vacib şərtlərdən biridir. Ümumiyyətlə, vergi ödəyicilərinin bilik səviyyəsinin artırılması və gələcəyin ödəyicilərinin hazırlanması, insanlarda bir vətəndaşlıq borcu kimi bu prosesi qəbul etməsi üçün müxtəlif yollardan istifadə olunmalıdır. Bu prosesdə dövlət qurumlarının və cəmiyyətin bütün təbəqələrinin, hətta dini qurumların iştirakının təmin edilməsi olduqca vacibdir. Bu yolla vergilərin ödənilməsində könüllü əməletmə səviyyəsini artırmaq olar.

Könüllü vergi ödəmələrində əsas şərtlərdən biri də dövlət və özəl biznes arasında əməkdaşlıq mühitinin yaradılmasıdır. Bu partnyorluq müqavilələr əsasında tənzimlənməlidir. Əvvəlcədən həm özəl sektoru, həm də dövləti təmin edən razılaşmalar yolu ilə vergiləri toplamaq mümkündür. Bu halda könüllü ödəmə səviyyəsi də yüksək olacaq.

Könüllü əməletmə nədir? Könüllü əməletmə ödəyicilərin öz vergi öhdəliklərini vaxtında yerinə yetirməsidir. Bunun müxtəlif formaları və mərhələləri var. Könüllü əməletmənin əsas elementlərindən biri vergi ödəyicilərinin öhdəliklərini, yəni bəyannamələri vaxtında təqdim etmələridir. Digər bir mərhələ, bəyan olunmuş vergilərin vaxtında ödənilməsidir. Sonrakı mərhələ isə vergi ödəyicilərinin dövriyyə vəsaitlərinin bu və ya digər halda çatışmazlığı səbəbindən vergi borclarının yaranmasıdır. Üçüncü mərhələ kimi vergi borclarının ödənilməsini də qeyd etmək olar. Ümumiyyətlə, vergi ödəyicilərinin yalnız məhkəmə tərəfindən vergi öhdəliklərini yerinə yetirməsi mütləq icbaridir, qalan hamısı könüllü əməletmənin tərkib hissələridir. Amma, sözsüz ki, bəyannamələrin vaxtında verilməsi ilə bəyannamələrin məcburi alınmasında könüllü əməletmə fərqlidir. Beləliklə, bütün bu mərhələlərin hamısı birlikdə könüllü əməletmənin səviyyəsini müəyyən edir.

Azərbaycanın vergi sistemində könüllü əməletmə səviyyəsinin artırılması ilə bağlı görülən işlərin həcmi kifayət qədər böyükdür. Respublikamızda həyata keçirilən vergi siyasətinin əsas istiqaməti vergi ödəyicilərinin öz bizneslərinə başlaması, vergi öhdəliklərini asanlıqla yerinə yetirməsi üçün vaxt və xərclərin azaldılmasının təmin edilməsindən ibarətdir. Bu faktorlar tam təmin olunub, eyni zamanda, bu prosesdə insan amilinin rolunun azaldılmasına, elektron xidmətlərin geniş tətbiq edilməsinə nail olunub. Vergilərin könüllü ödənilməsi sisteminin inkişaf etdirilməsi, ölkədə sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin formalaşdırılması məqsədilə respublikamızın bir neçə şəhər və rayonunda xidmət mərkəzləri yaradılıb. Könüllü əməletmə səviyyəsinin artırılmasında İnternet Vergi İdarəsi, Vergilər Nazirliyinin rəsmi internet səhifəsi də mühüm rol oynamaqdadır. Bütün bunların nəticəsi olaraq tam əsasla demək mümkündür ki, Azərbaycanda könüllü əməletmə səviyyəsi ən inkişaf etmiş ölkələrin səviyyəsinə çatdırılıb. Hazırda könüllü əmələetmə səviyyəsini artırmaq məqsədilə yeni informasiya texnologiyalarının tətbiqi ilə bağlı tədbirlər genişləndirilib ki, bu da əmələtmənin səviyyəsinin artmasına səbəb olacaq.

*Bir gün İrlandiyada yazıçı Oskar Uayld evinin qarşısında dayanmışdı. Vergiyığan gəlib ona salam verir və vergi ödəməyi barədə xəbərdarlıq edir. Yazıçı təəccüblənir və deyir:*

*- Nə vergi? Nə üçün vergi verməliyəm?*

***Vergiyığan cavab verir:***

*- Necə yəni? Sizin belə bir malikanəniz var. Burada yaşayırsınız, yatırsınız...*

***Uayld onun sözünü kəsir:***

*- Bilirsinizmi, mən çox pis yatıram.*

***Vergiyığan sakitcə dillənir:***

*- Nə qədər ki, ödəməmisiniz, yata bilməyəcəksiniz.*

# İri ticarət mərkəzlərində...

İri ticarət mərkəzlərində fəaliyyət göstərən vergi ödəyicilərinin uçota alınması prosedurlarının asanlaşdırılması, onların vaxtına və xərclərinə qənaət etmələri üçün vergi uçotunun və ünvanlı xidmətlərin həyata keçirilməsi məqsədilə stasionar məntəqələrin yaradılmasına zərurət yaranmışdır. Bununla əlaqədar vergilər nazirinin əmrinə əsasən, 2011-ci ildə «Sədərək» və «ArazAvia» firmalarına məxsus iri ticarət obyektlərində fəaliyyət göstərən vergi ödəyicilərinin və onların təsərrüfat subyektlərinin (obyektlərinin) vergi uçotuna alınması məqsədilə stasionar məntəqələr yaradılmışdır. Vergi uçotunun təşkili ilə əlaqədar ərizələrin qəbul edilməsi və vergi ödəyicilərinə qeydiyyat sənədlərinin təqdim edilməsi üçün bu obyektlər zəruri avadanlıqlarla təchiz olunmuş, Bakı Şəhər Vergilər Departamentinin bir qrup əməkdaşı stasionar məntəqələrə cəlb edilmiş, vergi ödəyicilərinin və onların təsərrüfat subyektlərinin (obyektlərinin) vergi uçotuna alınmasına başlanılmışdır.

## 5193 vergi ödəyicisinin və 9440 təsərrüfat obyektinin uçota alınması həyata keçirilmiş, 5175 təsərrüfat obyektində 5269 NKA quraşdırılmışdır



BŞVD-nin «Sədərək» ticarət mərkəzindəki stasionar məntəqəyə ezam olunmuş əməkdaşı Ağa Pirquliyevin sözlərinə görə, vətəndaşlardan ərizələr qəbul edilərək onlayn rejimdə qeydiyyat aparılır və bir gün ərzində vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamə (VÖEN) təqdim edilir. «Təsərrüfat obyekti qeydiyyata alındıqdan sonra mağazalara müvafiq kodlar verilir və görünən yerdə vurulur ki, bu da vergi ödəyicisini tez tapmaq, mağazaları fərqləndirmək üçün olduqca önəmlidir. Stasionar məntəqə fəaliyyətə başladığı dövrdən bu günə qədər «Sədərək» ticarət mərkəzində 3155 vergi ödəyicisi və 5854 təsərrüfat subyekti (obyekti) vergi uçotuna alınmışdır. Bununla bərabər, fəaliyyətini dayandırmış ödəyicilərin ərizələri məntəqəmizdə qəbul edilərək onların fəaliyyətləri və VÖEN-ləri aktivləşdirilir. Onu da qeyd edim ki, nağd pul hesablaşmaları üzərində nəzarətin gücləndirilməsi və bu vəsaitlərin uçotunun aparılması məqsədilə nəzarət-kassa aparatlarının (NKA) quraşdırılması mühüm əhəmiyyət kəsb edir. İri ticarət mərkəzlərində NKA-ların quraşdırılmasına bu ilin fevral ayından başlanmışdır. Hazırda «Sədərək» ticarət mərkəzində fəaliyyət göstərən 2926 təsərrüfat subyektində (obyektində) 2996 NKA quraşdırılaraq vergi uçotuna alınmışdır. Qeydiyyat prosedurunun elektronlaşdırılması vergi ödəyicilərinin, həmçinin NKA-ların qeydiyyatını daha da sadələşdirmiş, qeydiyyata sərf olunan vaxt və vəsait itkisini minimuma endirmişdir. İlk vaxtlar əməkdaşlarımız ödəyicilərin uçota alınması ilə əlaqədar müəyyən problemlərlə qarşılaşırdılar. Bazar-vergi münasibətləri haqqında bilgiləri çox zəif olduğundan vətəndaşlar vergi uçotuna durmaqdan çəkinirdilər. Lakin ticarət mərkəzlərində stasionar məntəqələrin fəaliyyət göstərdiyi çox qısa zaman ərzində apardığımız məlumatlandırma və izahat işləri nəticəsində burada çalışan sahibkarların vergilərə münasibətlərində müsbət istiqamətdə irəliləyişlər baş vermişdir. Ticarət mərkəzlərində fəaliyyət göstərən stasionar məntəqələrdə ödəyicilərə qanunvericiliyin tətbiqi və hesabatların təqdim edilmə müddətləri barədə məlumatlar və izahatlar verilir, onların sualları cavablandırılır. Vacib məqamlardan biri də iri ticarət mərkəzlərində vergilərin könüllü ödəmə sisteminin inkişafına nail olunmasıdır. Artıq burada sahibkarlıq fəaliyyəti göstərən hər bir vətəndaş vergi əməkdaşı və ya vergi orqanından xəbərdarlıq almadan könüllü şəkildə vergi uçotuna durmaq və VÖEN almaq üçün stasionar məntəqələrimizə üz tuturlar», - Ağa Pirquliyev demişdir.

«ArazAvia» firmasına məxsus ticarət mərkəzində yerləşən stasionar məntəqəyə ezam olunmuş BŞVD əməkdaşı Həsən Səfərovun bildirdiyinə görə, ötən müddət ərzində burada 2038 vergi ödəyicisi və 3586 təsərrüfat subyekti (obyekti) vergi uçotuna alınmış, 2249 təsərrüfat subyektində (obyektində) 2263 NKA quraşdırılmışdır. «İri ticarət mərkəzlərində stasionar xidmət məntəqələrinin yaradılması sayəsində sahibkarlıq fəaliyyəti göstərən istənilən şəxs çalışdığı yerdə uçota durub, vergilərini ödəyib, hesabat verə bilir. Bundan başqa, kassa aparatında hər hansı nasazlıq yarandığı halda, onu təmir etdirmək üçün ödəyicinin uzaq məsafə qət etməsinə ehtiyac qalmır. Ticarət mərkəzlərində fəaliyyət göstərən Servis Texniki Xidmət Mərkəzləri (STXM) tərəfindən ödəyicilərə bütün lazımi texniki servis xidmətləri göstərilir».

Dilşad Əmirova, «ArazAvia» firmasının direktoru: «Vergilər Nazirliyi tərəfindən aparılan məqsədyönlü tədbirlər, eləcə də sahibkarlar üçün yaradılan əlverişli şərait vergidən yayınma hallarının qarşısının alınmasına müsbət təsir göstərir. Əvvəllər vətəndaşlar vergi uçotuna durmaq və VÖEN almaq üçün şəhərə üz tutmalı idilər. Stasionar məntəqələr yaradıldıqdan sonra vergi ödəyicilərinin bütün məsələləri operativ şəkildə yerində həll olunur. Böyük dövriyyəyə malik iri ticarət mərkəzlərində müştərilərlə hesablaşmaların nağdsız qaydada aparılması məqsədilə POS-terminalların quraşdırılması ölkədə nağdsız ödəniş sisteminin inkişafına böyük töhfə vermiş olacaq...»

Kamilə Hacıyeva, vergi ödəyicisi: «İri ticarət mərkəzlərində ən son texnoloji avadanlıqlarla təchiz edilmiş stasionar məntəqələrin yaradılmasını və onların işini yüksək qiymətləndirirəm. Mən geyim ticarəti ilə məşğulam. Sadələşdirilmiş vergi ödəyicisiyəm. Ödəyicilərin problemlərini daim diqqət mərkəzində saxladıqlarına, göstərdikləri diqqət və qayğıya görə vergi orqanı əməkdaşlarına dərin təşəkkürümü bildirirəm».

**Arzu İBRAHİMOVA**

# Səyahətə gedərkən necə sığortalanmalı?

Gözlənilməz təhlükələr zamanı zərərin minimuma endirilməsində sığorta şirkətləri ilə bağlanan müqavilələrin böyük rolu vardır. Məsələn, hansısa qəza nəticəsində yararsız hala düşən avtomobil öncədən sığortalanmış olarsa, belə hallarda avtomobilin bərpa olunması xərci sahibinin deyil, sığorta şirkətlərinin üzərinə düşür. Qısaca desək, sığorta, şəxslərin müxtəlif xarakterli risklərini başqa bir şəxsə, yəni, sığorta şirkətinə ötürmə formasıdır. Sığorta şirkəti sığorta müqaviləsi ilə öz üzərinə müqavilədə nəzərdə tutulmuş sığorta hadisəsi baş verdikdə sığorta ödənişini həyata keçirmək öhdəliyini götürür.

Bir neçə il öncə, ölkədə sığorta deyildikdə daha çox avto nəqliyyat vasitələrinin sığortası başa düşülürdüsə, hazırda cəmiyyətimizdə sığortanın digər növlərinə də marağın artdığını görmək olur. Elə sığorta şirkətlərinin sığorta yığımları üzrə açıqladığı məlumatlarda da bunu görmək mümkündür. Bu gün ölkədə fərdi qəza və xəstəlik sığortası, tibbi sığorta, mülki məsuliyyət sığortası, icbari sığorta üzrə kifayət qədər sığorta ödənişləri həyata keçirilib. Son zamanlar səyahət sığortası da insanların maraq dairəsinə daxil olmaqdadır.

Sığorta şirkətləri Dövlət Sığorta Nəzarəti Xidməti tərəfindən sığorta fəaliyyətinə verilmiş lisenziya əsasında fəaliyyət göstərirlər. Ölkədə hazırda 28 sığorta və 1 təkrar sığorta şirkəti var. Xidmətdən qəzetimizə verilən məlumata görə, bu ilin yanvar-fevral ayları ərzində sığorta şirkətləri tərəfindən 58 milyon 915 min 733 manat məbləğində sığorta haqları yığılıb, 9 milyon 546 min 653 manat həcmində isə sığorta ödənişləri edilib. Səfər sığortası üzrə yığımlar isə 150 min 411 manat təşkil edib və bu məbləğdən 6 min 466 manat sığorta ödənişləri edilib.

Bəs səyahət sığortası nələri qarşılayır və bu sığorta növündən necə yararlanmaq olar?

Qeyd edək ki, səyahət sığorta şəhadətnaməsi ümumi tibbi sığorta şəhadətnaməsi hesab edilməməlidir. Təminatlar sığortalının xarici ölkədə olduğu müddətdə baş verə biləcək qəfil gözlənilməz xəstəlik və ya qəza hallarını nəzərdə tutur. Səyahət sığortasının qiyməti səfər edilən ölkədən, səfərin müddətindən və məqsədindən, sığorta ödənişinin maksimal həddindən asılı olaraq dəyişir.

Səyahət sığortasından birdəfəlik və il ərzində çoxsaylı səyahətlər zamanı istifadə etməklə yararlanmaq olar. Birdəfəlik səyahət üzrə sığorta, sığortalının ərazi limitlərində təsvir edilmiş səyahətə çıxmaq üçün öz vətənində yaşadığı yeri və ya iş yerini tərk etməsi ilə başlanır. Sığortanın bitməsi isə sadalanan hallardan birinin ilk başlanması ilə mümkün olur. Bunlar, sığorta şəhadətnaməsində göstərilən sığorta müddətinin sona yetməsi, səyahətin sonunda sığortalının öz vətəninə qayıtması, sığortalının planlaşdırılmış tarixdən öncə vətəninə qayıtması zamanı baş verir.

İl ərzində çoxsaylı səyahətlər üzrə sığortaya gəlincə isə qeyd edək ki, səyahətlər üzrə sığortanın başlanması və bitməsi birdəfəlik səyahət sığortasında olduğu kimidir. Lakin bu səyahət sığortası üzrə sığortanın bitməsinə səbəb olan digər amillər də var. Məsələn, əgər sığortalının səfərdə olma müddəti sığorta şəhadətnaməsində göstərilən müddətdən artıq olarsa həmin dövr təminata daxil edilmir.

Səyahət sığortası çərçivəsində tibbi məsləhət və konsultasiya, tibbi müalicə təminatı, ölümdən sonra repatriasiya xərcləri, lazımi dərmanların çatdırılması, ziyarətçinin qalma xərcləri, xəstəxanadan evə yazıldıqdan sonra mehmanxanada qalma xərcləri, müalicədən sonra daimi yaşayış yerinə qayıdışın təşkili, sığortalının vəfatı halında ailə üzvlərinin daimi yaşayış yerinə qaytarılması və s. xidmətlər təklif edilir.

Onu da bildirək ki, sığorta şirkətləri bədbəxt hadisə zamanı yaranmış halları da təminata daxil edir. Bu halların bədbəxt hadisədən sonra 180 gün ərzində meydana çıxması nəzərdə tutulur. Bunlar, həmin şəxsin ölüm, əmək qabiliyyətinin tam və daimi itirilməsi, bir və ya daha çox ətrafın itirilməsi, görmə qabiliyyətinin itirilməsi hallarıdır.

**Aytən NƏBİYEVA**

# Külli miqdarda vergidən yayınma faktları aşkar olunub

Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən 2012-ci ilin mart ayında 15 cinayət işi başlanmışdır ki, onlardan da 8-i külli miqdarda vergiləri dövlət büdcəsinə ödəməkdən yayındırmış sahibkarlar barəsində olmuşdur. Araşdırmalar zamanı müəyyən edilmişdir ki, «Azərbərpa-1» MMC 347 min 487,99 manat, «Rubin-TTİ» 181 min 28,35 manat, «Yeni sabah» MMC isə 4 milyon 119 min 588,22 manat məbləğində vəsaiti vergi orqanlarına təqdim edilən hesabatlara bilərəkdən təhrif olunmuş məlumatlar daxil etməklə dövlət büdcəsinə ödəməkdən yayındırmışlar. Külli miqdar təşkil edən bu cür vergidən yayınma faktları vergi orqanları tərəfindən «Yeni sabah» MMC-də 2007-ci ilin oktyabr ayı üzrə aparılmış kameral vergi yoxlaması, «Azərbərpa-1» MMC, «Rubin-TTİ»-də 2010-cu il üzrə aparılan növbədənkənar səyyar vergi yoxlamaları zamanı aşkara çıxarılmışdır. Sözügedən müəssisələr əsasən əlavə dəyər vergisi, mənfəət vergisi və ödəmə mənbəyindən tutulan vergiləri büdcədən yayındırmışlar. Departament tərəfindən aparılmış digər araşdırmalarla «M Aqrarsənaye», «Falko-Fa», «Paradif», «Caspian Dome» və «Pronto LTD» MMC-də də külli miqdarda vergilərin dövlət büdcəsindən yayındırılması faktları aşkar edilmişdir. Hazırda təqsirli şəxslərin müəyyən olunması ilə bağlı tədbirlər həyata keçirilir.

Araşdırma zamanı vergidən yayınma faktları toplanmış materiallarla təsdiq edildiyi üçün onlardan hər biri üzrə Departamentdə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 213.2.2-ci maddəsi (külli miqdarda vergilərin dövlət büdcəsindən yayındırılması) ilə müvafiq cinayət işi başlanmışdır.

# Vergi ödəyiciləri ilə görüş

Mart ayının 30-da Cəlilabad şəhərində 429 nəfər vergi ödəyicisi ilə görüş keçirilmişdir. 6 saylı Ərazi Vergilər İdarəsinin vergi ödəyicilərinə xidmət şöbəsinin rəisi Eldəniz Kərəmov tədbirdə çıxış edərək ölkədə sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin formalaşdırılması məqsədilə görülən işlər barədə danışmışdır. O, dövlət vergi orqanlarında vətəndaşların qəbulu qaydalarına edilmiş dəyişiklik və Vergilər Nazirliyinin rəsmi internet saytından (www.taxes.gov.az) istifadə etməklə onlayn rejimdə video qəbul yaradılması barədə məlumat vermişdir.

E.Kərəmov özəl vergi xidməti göstərən şəxslərin fəaliyyətinə nəzarətin artırılması, onlar tərəfindən vergi ödəyicilərinin xəbəri olmadan bəyannamələrin göndərilməsi və digər əməliyyatların aparılmasının qarşısının alınması məqsədi ilə müqavilələrin bağlanması barədə məlumat vermişdir.

Tədbirdə çıxış edən vergi əməkdaşları uçota alınmadan sahibkarlıq fəaliyyəti həyata keçirən şəxslərə qarşı vergi nəzarətinin həyata keçirilməsi və qanunda nəzərdə tutulmuş məsuliyyət tədbirləri, büdcə təşkilatları tərəfindən tender məlumatlarının təsdiq olunmuş yeni formaya uyğun tərtib olunması, nağdsız ödəniş vasitələrindən, o cümlədən, POS-terminallardan, plastik kartlardan və digər müasir elektron ödəniş xidmətlərindən istifadə qaydaları haqda məlumat vermişlər.

# Banklararası hesablaşmalarda IBAN strukturlu hesablardan istifadə olunacaq

## *Bununla əlaqədar maliyyə institutlarının müxbir və submüxbir hesablarında dəyişiklik edilmişdir*

Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən Standart Bank hesab nömrələrinin (İBAN) tətbiqi ilə əlaqədar milli ödəniş sisteminin iştirakçısı olan Maliyyə institutlarının müxbir və submüxbir hesablarında dəyişiklik edilmişdir. 12 mart 2012-ci il tarixdən banklararası hesablaşmalar sistemində Maliyyə institutları üçün yalnız IBAN strukturlu hesablardan istifadə olunur.

IBAN (International Bank Account Number) müştərinin standartlaşdırılmış formatda beynəlxalq bank hesab nömrəsidir: hesabın elektron eyniləşdirilməsini həyata keçirməyə imkan verir. Əvvəllər beynəlxalq ödəniş həyata keçirən alıcının hesab nömrəsi kimi Avropa İttifaqına üzv olan dövlətlər arasında köçürmələrin sürətinin və keyfiyyətinin yüksəldilməsi üçün istifadə olunan IBAN indi Avropa Birliyinə daxil olmayan ölkələrdə də istifadə edilir. Azərbaycanda da artıq standart bank hesab nömrəsindən istifadə edilməsi üçün qaydalar təsdiq olunub. IBAN ölkədaxili və ölkədənkənar banklararası hesablaşmalarda iştirak edən bütün bank hesablarına tətbiq ediləcək. Ölkədaxili və ölkədənkənar köçürmələr üçün nəzərdə tutulan ödəniş sənədlərində ödəyicinin IBAN-ı düzgün göstərilmədikdə isə sənəd icraya qəbul edilməyəcək. IBAN kodlarının tətbiqi ödəniş sistemlərinin proqram məhsullarının təkmilləşdirilməsini tələb edir. Belə ki, ödənişlər avtomatik şəkildə işləndiyi üçün ödəniş proqramı IBAN-da ölkənin kodunu, eləcə də müştərinin hesab nömrəsini tanımalıdır. Buna görə IBAN-dan istifadə edən ölkələrin mövcud milli standartları onların eyniləşdirilməsinin sadələşdirilməsi istiqamətində bir sıra dəyişikliklərə məruz qalır.

IBAN-dan istifadə ödənişlərin işlənməsi prosesini bütünlüklə avtomatlaşdırmağa, hesablaşmaların həyata keçirilməsi zamanı vasitəçi bankların xidmətlərindən imtina etməyə imkan yaradır ki, bu da nəticədə pulun daha tez hərəkəti üçün, gələcəkdə isə beynəlxalq ödənişlərin həyata keçirilməsinə xərclərin azalması üçün zəmin yaradır.

Beləliklə, bank sektorunun IBAN sistemindən tam hüquqlu istifadə edilməsi bank hesab nömrəsinin avtomatik eyniləşdirilməsini yaratmağa və bank idenfikatorlarının leqallaşdırılmasının vahid şəklə salınmasına imkan yaradacaq.

Standart bank hesab nömrələrinin tətbiqi ilə əlaqədar Dövlət Xəzinədarlıq orqanlarında olan vergi və rüsumların köçürülməli olduğu xəzinə hesablarının rekvizitləri

**Dövlət Xəzinədarlığı Agentliyi**
*Kod* 210005
*Müxbir hesab:* AZ41NABZ01000000000003944
*SWIFT* CTREAZ 22

***Bakı Şəhər Vergilər Departamenti***
*VÖEN:* 1400303751
*Hesablaşma hesabı:* 2117131

***Vahid ƏDV Depoziti Hesabının rekvizitləri***
***Dövlət Xəzinədarlığı Agentliyi***
*Kod:* 210027
*VÖEN:* 1401555071
*Müxbir hesab:* AZ07NABZ01360100000000004944
*SWIFT* BIK CTREAZ24
*Hesab* 14001

**Arzu İBRAHİMOVA**

# «VISA» Vergilər Nazirliyi ilə əməkdaşlığa böyük önəm verir

***«VISA»nın MDB ölkələri üzrə regional meneceri Aleksandr Kalita nağdsız ödənişlər bazarının inkişafı ilə bağlı Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirləri yüksək qiymətləndirib. Onun sözlərinə görə, Azərbaycanda iqtisadiyyat innovativ metodlarla idarə olunur, nağdsız ödənişlər cəmiyyətin inkişaf tələblərinə uyğun qurulur. İqtisadiyyatın yüksək sürətlə inkişafı ilə əlaqədar ölkədə ödəniş kartlarından istifadə artacaq - bu, iqtisadiyyatın qanunauyğunluqlarından biridir.***




## *Aleksandr Kalita:*

*{ Nağdsız ödənişlər bazarının inkişafı vergitutma bazasının genişlənməsinə mühüm təsir göstərəcək }*

Nağdsız ödənişlərlə bağlı «VISA»-nın hökumətlə sıx əməkdaşlıq etdiyini bildirən cənab Kalita Vergilər Nazirliyi ilə birgə nəzərdə tutulan hədəflərə də aydınlıq gətirib: «Mərkəzi Bank, Vergilər Nazirliyi, kommersiya bankları və Mədəniyyət və Turizm Nazirliyinin regionlarda nağdsız ödənişlərin inkişaf etdirilməsi ilə əlaqədar təşəbbüslərini dəstəkləyərək «VISA» ötən ildən bəri Vergilər Nazirliyi ilə əməkdaşlığa başlayıb. 2012-ci ildə əməkdaşlığın konkret istiqamətləri üzrə birgə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Bu il bizim üçün əsas istiqamətlər ticarət şirkətlərini fəallaşdırmaq, kart sahiblərini malların və xidmətlərin haqqının terminal və ya internet vasitəsilə ödənilməsinə təşviq etmək, emitentlərlə fəal işləmək və vahid bir sistem yaratmaqdır».

A.Kalita qeyd edib ki, Vergilər Nazirliyi və digər dövlət qurumları ilə birgə fəaliyyət ticarət, ictimai-iaşə və xidmət obyektlərində POS-terminalların tətbiqinin stimullaşdırılmasına və istehlakçıların maarifləndirilməsinə yönəldilib. Etiraf etmək lazımdır ki, Azərbaycanda böyük potensiala malik milli elektron-ödəniş sistemi yaradılıb, güclü kart infrastrukturu formalaşıb, əməliyyatların nağdsız şəkildə aparılması üçün baza və lazımi qədər POS-terminal mövcuddur: «Vergilər Nazirliyi ilə əməkdaşlıq ümumi bir strategiyanın tərkib hissəsidir. «VISA»nın və Vergilər Nazirliyinin nağdsız ödənişlər bazarının inkişaf etdirilməsinə dair təşəbbüsləri eyni məqsədə xidmət edir, dövriyyədə olan nağd pul kütləsinin nağdsız dövriyyə ilə əvəz olunması, iqtisadi fəaliyyət göstərən şəxslərin və əhalinin elektron ödəniş sistemlərindən istifadəsinin genişləndirilməsi əməkdaşlıqda əsas prioritetlərdir. Mərkəzi Bank və bank strukturları ilə layihələrin həyata keçirilməsi və bu sahədə qarşıya qoyulmuş vəzifələr Vergilər Nazirliyinin nəzərdə tutduğu hədəflərə nail olması deməkdir. «VISA» nağdsız ödənişlər cəmiyyətinin qurulması üçün bu sistemdə bilavasitə iştirakçı olan bütün tərəflər ilə birgə fəaliyyət planı əsasında işləməyin tərəfdarıdır».

«VISA»nın MDB ölkələri üzrə regional menecerinin sözlərinə görə, əməkdaşlığın ən başlıca istiqaməti ticarət və kommersiya sektorunda qeyri-pul ödənişlərini stimullaşdırmaqdır: «Biz bu sahədə Avropa dövlətlərinin, o cümlədən Rusiyanın təcrübəsinin səmərə verəcəyinə inanırıq. Rusiyada son 2 ildə kommersiya obyektlərinin nağd ödəmələrdən nağdsız ödəmələrə keçilməsi xeyli inkişaf edib, e-ticarətin ümumi dövriyyəsində 3 dəfəyə yaxın artım müşahidə olunur. Azərbaycanın ticarət bazarının da buna hazır olması lazımdır. Eyni zamanda, bankların bu prosesdə iştirakının təmin olunması əsas şərtdir. «VISA» hazırda Azərbaycanın 33 bankı ilə bu sahədə əməkdaşlıq edir. 12 bank əsas, 21 bank isə assosiativ tərəfdaşımızdır. Azərbaycan banklarından 7-si «VISA»nın texniki köməyi ilə ticarət əməliyyatlarına aid ekvayrinqə, 6-sı isə internet kommersiya ekvayrinqinə qoşulub».

Həyata keçirilən tədbirlərin son məqsədindən danışan Aleksandr Kalita bildirib ki, qarşıda duran vəzifə Azərbaycanda nağdsız ödənişlər bazarının inkişaf etdirilməsinə nail olmaqdır: «Nağdsız ödənişlər bazarının inkişaf etdirilməsi nəticə etibarilə vergidən yayınma hallarının qarşısının alınmasına və vergitutma bazasının genişlənməsinə öz mühüm təsirini göstərəcək. Bütün ölkələrdə belə bir hal müşahidə olunur: nağd ödəmələr olan yerdə təsərrüfat subyektləri öz dövriyyələrini gizlətməyə çalışırlar. Amma e-ticarət zamanı bu halların qarşısı tamamilə kəsilir, çünki təsərrüfat subyektinin POS-terminal vasitəsilə, yaxud internet ödəmə zamanı dövriyyələrinin məbləğini saxtalaşdırması mümkün olmur. Nağdsız ödənişlərin həcminin artırılması vergitutma bazasının ciddi şəkildə genişlənməsi üçün mühüm mənbədir. Nağdsız hesablaşmaların tətbiqi vergi ödəyiciləri tərəfindən maliyyə-təsərrüfat fəaliyyətinin uçotunun düzgün aparılması, vergitutma bazasının, vergiyə cəlb olunan gəlirlərin düzgün müəyyən edilməsi, konyunkturdan asılı olan pul gəlirlərinin nəzarətdə saxlanılması, daxili tələbatın əvvəlcədən proqnozlaşdırılması baxımından əhəmiyyətli məsələdir. Təsərrüfat subyektləri və vətəndaşlar yeni sistemin üstünlüklərini başa düşməlidirlər. Onlar bilməlidirlər ki, nağdsız hesablaşmalar şəffaflıq və etibarlılığa səbəb olmaqla yanaşı, rahatlıq, əlverişlilik, vaxta qənaət deməkdir».

A.Kalita Azərbaycanın dövlət qurumları ilə əməkdaşlığın perspektiv istiqamətlərindən danışırkən gələcəkdə internet ödəmələrin də təsirli nəticələr verəcəyinə inandığını qeyd edib: «Azərbaycanın internet vasitəsilə nağdsız ödəmə sferasındakı inkişafı çox maraqlı və perspektivli istiqamətdədir. Əməkdaşlıq çərçivəsində nağdsız ödənişlər sahəsində metodoloji və institusional bazanın daha da təkmilləşdirilməsinə nail olunacaq ki, bu da vahid ödəniş məkanının yaradılması üçün əlverişli zəmin deməkdir».

**Elbrus CƏFƏRLİ**

## Xidmət mərkəzlərinin əməkdaşları üçün treninq

Vergilər nazirinin 10 yanvar 2012-ci il tarixli əmrinə əsasən, fevralın 1-dən vergi ödəyicilərinə xidmət terminallarının bazasında vergi ödəyicilərinə xidmət mərkəzləri yaradılmışdır və həmin mərkəzlərdə vergi ödəyicilərinə xidmət strukturlarının əməkdaşlarının çalışması nəzərdə tutulmuşdur.

Bakı Şəhər Vergilər Departamentində keçirilmiş treninq «Vergi ödəyicilərinə xidmət mərkəzinin fəaliyyət Qaydaları»nın tələblərinin mənimsənilməsi, xidmət mərkəzlərinin fəaliyyətinin təşkili, vergi ödəyicilərinin uçot və qeydiyyat məsələləri ilə bağlı xidmətlərin göstərilməsi istiqamətində mərkəzlərə təhkim olunmuş əməkdaşların praktiki bacarıqlarının yüksəldilməsi, onların xidməti fəaliyyəti zamanı normativ aktların tələblərinə uyğun davranış normaları kimi məsələlərə həsr olunmuşdur.

Treninq çərçivəsində vergi əməkdaşları üçün «Vergi ödəyicilərinə xidmət mərkəzlərinin fəaliyyət qaydaları və elektron ödənişlər», «E-bəyannamələrin və e-hesab-fakturaların göndərilməsi», «Vergi uçotu ilə əlaqədar vergi ödəyicilərinə elektron şəkildə xidmətlərin göstərilməsi işinin təşkili», «Yerli investisiyali kommersiya hüquqi şəxslərin e-qeydiyyatı işinin təskili və Kommersiya qurumlarının ilkin qeydiyyatı və qeydiyyat məlumatlarında baş verən dəyişikliklərin qeydiyyata alınması prosedurları», «Xidmət mərkəzlərinə təhkim edilmiş əməkdaşların xidməti fəaliyyəti zamanı normativ aktların tələblərinə uyğun davranış (hərəkət və ya hərəkətsizlik) normaları» və «Xidmət mərkəzlərində işin təşkili və hesabatların tərtib olunması» mövzularında təqdimatlar edilmişdir.

# Neft bumundan sonrakı Azərbaycan...

### *«Fitch» və «Moodys» 2012-2013-cü illərdə respublikamızda qeyri-neft sektorunun inkişafı ilə bağlı nikbin proqnozlarla çıxış edib*

Dünyanın 2 nüfuzlu beynəlxalq reytinq agentliyi - «Fitch» və «Moodys» Azərbaycanın yaxın 2-3 illik makroiqtisadi inkişafı ilə bağlı hazırladığı proqnozları açıqlayıb. Hər iki qurumun Azərbaycan iqtisadiyyatının müxtəlif sahələri ilə əlaqədar apardığı təhlillərə əsasən, son illərdə qlobal proseslərlə bağlı regionda baş verən geoiqtisadi gərginliklərə və risklərə baxmayaraq, bu proseslərdə Azərbaycanın həssaslığı mülayim hesab edilir. İqtisadi və maliyyə riskləri respublikamızda çox aşağı səviyyədə qiymətləndirilir. Proqnozlara görə, inkişaf meyllərini qoruyub saxlayan respublikamızda qarşıdakı illərdə dinamik artım tempi davam edəcək. Əlverişli biznes mühiti sahibkarlığın inkişafına mühüm təsir göstərməklə iqtisadiyyatın çoxşaxəliliyini təmin edir. Xüsusilə də, son illər qeyri-neft sektorunun payı ümumi iqtisadiyyatda artmaqla yaxın illər üçün milli inkişafın əsas bazasına çevrilə bilər.

«Moodys» reytinq agentliyi hesab edir ki, Azərbaycan iqtisadiyyatının orta müddətli artımı üçün güclü potensial mövcuddur. Neft-qaz gəlirlərindən əldə olunmuş böyükhəcmli valyuta ehtiyatlarının qeyri-neft iqtisadiyyatının inkişafına yönəlməsi sayəsində gələcəyə güclü zəmin yaradılmaqdadır. Yanacaq ehtiyatlarının iqtisadiyyatın şaxələndirilməsinə yönləndirilməsi orta-müddətli artım potensialını gücləndirir. Bununla yanaşı, iqtisadiyyatda digər sahələrin xüsusi çəkisinin artması fonunda neft və qaz amilinin təsirinin azalması uzunmüddətli perspektivdə gözlənilən başlıca meyarlardan biridir, bu isə iqtisadi artımın tarazlılığını təmin edə bilər. İqtisadiyyatın digər təbii ehtiyatların yüksək artımı hesabına inkişaf etdirilməsi üçün ölkədə uzunmüddətli maliyyə sabitliyi amili də mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanın yüksək maliyyə davamlılığına malik olduğunu bildirən «Moodys» ölkəmizin büdcə-maliyyə-fiskal siyasətinin mühüm nəticələr verdiyini də qeyd edir. Ümumi daxili məhsulun artımı və bunun müqabilində ölkəmizin dövlət borcunun səviyyəsinin aşağı düşməsi, maliyyə ehtiyatlarının artması sayəsində kredit və maliyyə institutlarının fəaliyyətinin genişlənməsi müsbət tendensiya kimi qiymətləndirilir. Azərbaycanın güclü maliyyə vəziyyətinin gələcəkdə daha da yaxşılaşacağı, həmçinin ölkənin institusional potensialının inkişafı və daxili kapital bazarında müsbət dəyişikliklərin baş verəcəyi proqnozlaşdırır.

«Fitch» reytinq agentliyinin də Azərbaycanla bağlı sosial-iqtisadi inkişaf proqnozları nikbindir. Məlumatda qeyd olunur ki, balans tarazlığı və resursların ağıllı idarə olunması neft siyasətində müsbət göstəricidir. Qurum 2012-ci ildə respublikamızda ümumi daxili məhsulun artımının 3%-i keçəcəyini, qeyri-neft sektorunda artımın ümumi inkişaf tempindən ən azı 3 dəfə çox olacağını proqnozlaşdırır. «Fitch» «Neft bumundan sonra Azərbaycan» adlı təqdimatında qeyd edir ki, yaxın 3 il ərzində Azərbaycanın strateji valyuta ehtiyatlarının həcmi 60 milyard dollara yaxınlaşacaq. Bu həcmdə kapital ehtiyatlarının iqtisadiyyatın qeyri-neft sahələrini inkişaf etdirmək üçün çox güclü potensial olduğunu bildirən təşkilatın ekspertlərinin qənaətinə görə, bu baza dövlətin qeyri-neft bölmələrinə maliyyə dəstəyini gücləndirməsinə imkan verir. Qurum müasir dövrün tələblərinə uyğun yeni inkişaf meyarlarının tətbiq olunmasının, islahatların məzmunun dəyişməsinin zəruriliyinə də diqqət yönəldir. Qeyd olunur ki, ölkəmizdə həyata keçirilən sistemli və genişmiqyaslı demokratik siyasi və iqtisadi islahatlar respublikamızın iqtisadiyyatının çoxvektorlu inkişafının daha da sürətlənməsi üçün mühüm zəmin yaradır.

**E.CƏFƏRLİ**

## «2012-ci ildə vergi borcu olmadan» adlı aksiya keçirilmişdir

**Vergilər Nazirliyi vergi ödəyicilərinin vergi qanunvericiliyi ilə müəyyən edilmiş öhdəliklərinin vaxtında yerinə yetirilməsi üçün məlumatlandırılması, habelə vergi borcu olan vergi ödəyicilərinə borcları barədə məlumatların fərdi qaydada çatdırılması məqsədilə «2012-ci ildə vergi borcu olmadan» adlı aksiyaya start vermişdir.**

28-29 mart tarixlərində Vergilər Nazirliyinin nümayəndələri vergi ödəyicilərinə vergi bəyannamələrinin təqdim edilməsi və ödəmələrin vaxtında həyata keçirilməsi haqqında bildirişlər paylamış, borclu vergi ödəyicilərinin təsərrüfat obyektlərinə getməklə onlara borclarının olduğu barədə məlumatlar çatdırmışlar.

Borclu ödəyicilərin nəzərinə çatdırılmışdır ki, cari ilin 2 aprel tarixi hüquqi şəxslər üçün mənfəət, əmlak, yol vergiləri, fiziki şəxslər üçün isə gəlir vergisi üzrə bəyannamələrin təqdim edilməsinin və vergi ödəmələrinin aparılmasının, 20 aprel isə sadələşdirilmiş vergi üzrə bəyannamələrin təqdim edilməsinin son müddətidir.

Vergi ödəyiciləri aksiyadan razı qaldıqlarını ifadə edərək bildirmişlər ki, belə aksiyaların keçirilməsi, borclar barədə onlara vaxtında və fərdi qaydada məlumat verilməsi gələcəkdə bir çox problemlərin qarşısının alınması üçün ən təsirli vasitələrdən biridir.

# Bəyannamələr və maliyyə sanksiyaları

Bir çox inkişaf etmiş ölkələrdə vergi ödəyicilərinə hesabatları vaxtında təqdim etmədiklərinə görə sərt maliyyə sanksiyaları tətbiq edilir. Xüsusilə, Avropa ölkələrində bu sanksiyalar Azərbaycanla müqayisədə xeyli sərtdir. Məsələn, Almaniyada vergi hesabatlarını vaxtında təqdim etməyənlərə qarşı ödənilməli vergi məbləğinin 10%-i həcmində cərimələr hesablanır. Böyük Britaniyada isə hesabatları vaxtında ödəməyənlərin faiz göstəricilərinin ildən-ilə çoxalması onlara qarşı daha sərt tədbirlərin həyata keçirilməsi ilə nəticələnmişdir. Bu ölkədə fiziki şəxslərin gəlir vergisi üzrə bəyannamələrin vaxtında təqdim edilməməsinə görə vergi məbləğinin 100% həcmində sanksiya tətbiq edilir. 6 aydan 1 ilədək gecikdirilməyə görə isə 100% həcmində növbəti dəfə peniya hesablanır. İrlandiyada hesabatlar 2 aya qədər gecikdirildikdə ödənilməli məbləğin 5%-i, gecikdirilmə 2 aydan çox olduqda isə məblәgin 10%-i həcmində əlavə vəsait hesablanır.

Vergi hesabatlarının vaxtında təqdim edilməsinə görə dünyada nümunəvi olan Skandinaviya ölkələrində də vəziyyət oxşardır. Məsələn, Norveçdə hesabatların gecikdirilməsinə görə müəssisənin xalis gəlirinin 0,1%-dən 2%-ni qədər həcmində maliyyə sanksiyaları tətbiq edilir. Finlandiyada isə konkret hədd olaraq 300 avro məbləğində cərimə kəsilir.

Avropa ölkələri ilə yanaşı, Şərq ölkələrinin də qanunvericilik aktlarında nəzərdə tutulan cərimələr ildən-ilə sərtləşdirilir. Yaponiyada vergi hesabatlarının könüllü verilməməsinə görə ödənişin 5%-indən 15%-dək cərimə tətbiq olunur. Cənubi Koreyada isə ödənilməli verginin 20%-i və ya ümumi gəlirin 0,07%-i (hansı daha böyük məbləğdə olarsa) həcmində cərimə hesablanır.

### Azərbaycanda tətbiq olunan maliyyə sanksiyaları

Azərbaycanın vergi sistemində aparılan islahatlar, vergi qanunvericiliyinə edilən əlavə və dəyişikliklər bu məsələnin tənzimlənməsində münbit şərait yaratmışdır. Vergi Məcəlləsində nəzərdə tutulan maliyyə sanksiyaları da sosial-iqtisadi siyasətin tələblərinə uyğunlaşdırılmışdır.

Vergi Məcəlləsində bəyannamənin vergi orqanına vaxtında təqdim edilməməsinə



görə tətbiq edilən maliyyə sanksiyalarına diqqət yetirək. Məcəllənin 57.1-ci maddəsinə əsasən, vergi hesabatını və ya 16.2 maddədə nəzərdə tutulan arayışı (vergi ödəyicisinin hesabat dövründə sahibkarlıq fəaliyyəti və ya digər vergi tutulan əməliyyatı olmadığı halda vergi orqanına vergi hesabatının əvəzinə, hesabatın təqdim edilməsi üçün müəyyən edilmiş müddətdən gec olmayaraq arayış təqdim edilir) əsas olmadan müəyyən edilən müddətdə təqdim etməyən vergi ödəyicisinə vergi orqanının rəhbərinin (onun müavininin) qərarına əsasən, 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

Digər tərəfdən, vergi ödəyicisi vergilər, faizlər və maliyyə sanksiyaları üzrə borclarını Vergi Məcəlləsinin 65.1-ci maddəsində qeyd olunan bildirişdə göstərilən 5 gün ərzində ödəmədikdə, vergi orqanı vergi ödəyicisindən Vergilər Nazirliyi tərəfindən müəyyən edilmiş formada aktivləri barədə məlumatın 10 gün ərzində vergi orqanına təqdim etməsini tələb edə bilər. Məlumatın vaxtında verilməməsinə görə vergi ödəyicisinə vergi orqanı rəhbərinin (onun müavininin) qərarına əsasən, 100 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

### Ölkəmizdə bəyannamələri vaxtında təqdim edən vergi ödəyicilərinin sayı sürətlə artır

Azərbaycanda həyata keçirilən vergi siyasətinin başlıca istiqamətlərindən biri vergilərin məcburi yığılmasından könüllü ödənilməsinə keçidin təmin edilməsidir. Vergi ödəyicilərinin vergi qanunvericiliyinə könüllü əməletməsinin əsas şərti isə bəyannamələrini və hesabatlarını vergi orqanlarına vaxtında təqdim etmələridir. Bunun təmin edilməsi üçün Vergilər Nazirliyi tərəfindən davamlı olaraq məqsədyönlü tədbirlər həyata keçirilir, vergi ödəyicilərinə hər cür metodiki kömək göstərilir. Məhz aparılan ardıcıl tədbirlərin nəticəsidir ki, 2011-ci ilin son hesabat dövrünün yekunları üzrə yanvar ayında təqdim edilməli olan bəyannamələrin 95%-dən çoxu könüllü olaraq vaxtında təqdim edilmişdir. Vaxtında verilmiş bəyannamələrin 90%-dən çoxu isə elektron qaydada göndərilmişdir.

**Rəşad SADIQOV**

Vergilər



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru

Mühasib

## Ezamiyyə əməliyyatları

# QHT-lərdə ezamiyyə ilə bağlı əməliyyatların fərdi xüsusiyyətləri

**(əvvəli ötən sayımızda)**

Qəzetimizin əvvəlki nömrələrində hazırda ezamiyyə qaydalarını tənzimləyən iki normativ aktın qüvvə olduğunu, yəni Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli «Ezamiyyə xərclərinin normaları haqqında» qərarının və Azərbaycan Respublikası Maliyyə Nazirinin 14 fevral 2008-ci tarixli əmri ilə təsdiq edilmiş «İşçilərin ezamiyyə qaydaları»nın mövcud olduğunu bildirmişdik.

Yenə də qeyd etmək istəyirik ki, Qaydalar ezamiyyə anlayışı, ezamiyyə əməliyyatları üzrə xərclərin adları, ezamiyyə ilə bağlı təsərrüfat əməliyyatlarının həyata keçirilməsi qaydaları, rəsmiləşdirməsi, sənədləşdirmələri və sair bu kimi məzmunlardan ibarətdirsə, normalar sadəcə olaraq ezamiyyə xərclərinin normalarını, həmçinin büdcədən maliyyələşdirilən müəssisə, idarə və təşkilatlar olmayan digər hüquqi şəxslərdə (kommersiya və qeyri-kommersiya təşkilatlarında) vergiyə cəlb olunan mənfəətin hesablanması zamanı nəzərə alınan xərclərin tərkibində ezamiyyə xərclərinin maksimum normalarını əks etdirir.

Normalarda «ezamiyyə məbləğinin norması» kimi əks olunan ifadələr əslində, vergiyə cəlb olunan mənfəətin hesablanması zamanı nəzərə alınan xərclərin tərkibində ezamiyyə xərclərinin maksimum normalarını göstərir.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinə görə, QHT-lər əsas məqsədi mənfəət götürməkdən ibarət olmayan və götürülən mənfəəti iştirakçıları arasında bölüşdürməyən qurumlardır. Məcəllənin 43.6-cı maddəsində göstərilir ki, qeyri-kommersiya hüquqi şəxsləri sahibkarlıq fəaliyyəti ilə yalnız o hallarda məşğul ola bilərlər ki, bu fəaliyyət onların yaradılması zamanı qarşıya qoyulmuş məqsədlərə nail olmağa xidmət etsin və bu məqsədlərə uyğun gəlsin. Sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün qeyri-kommersiya hüquqi şəxsləri təsərrüfat cəmiyyətləri yarada bilər və ya onlarda iştirak edə bilərlər.

Azərbaycanda fəaliyyət göstərən QHT-lərin demək olar ki, əksəriyyətinin gəlirləri qrant daxilolmalarından ibarətdir və çox az sayda QHT-lər o cümlədən sahibkarlıq fəaliyyəti də göstərirlər. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 106.1.1-ci maddəsinə görə xeyriyyə təşkilatlarının gəliri - sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirdən başqa və 106.1.2-ci maddəsinə görə qeyri-kommersiya təşkilatlarının aldıqları əvəzsiz köçürmələr, üzvlük haqları və ianələr mənfəət vergisindən azaddır.

Göründüyü kimi QHT-lər yalnız sahibkarlıq fəaliyyəti ilə bağlı əməliyyatların baş verdiyinə görə mənfəət vergisinin və ya sadələşdirilmiş verginin ödəyicisi ola bilərlər.

Əgər QHT-lərin qeyri-birja əməliyyatlarından əldə etdiyi gəlirləri mənfəət vergisinin hesablanmasında nəzərdə tutulan gəlirlərə aid edilmirsə, deməli həmin gəlirlərlə bağlı xərclərin vergitutmaya təsiri də nəzərə alınmamalıdır. Məsələn, Vergi Məcəlləsinin 109.7-ci maddəsində göstərilir ki, faktiki ezamiyyə xərclərinin müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi normadan artıq olan hissəsi gəlirdən çıxılmır. Lakin QHT-nin aldıqları əvəzsiz köçürmələr, üzvlük haqları və ianələrin qeyri-kommersiya istiqamətində xərclərində ezamiyyə məbləğlərinin müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi normadan artıq olan hissəsinin gəlirlərdən çıxılıb-çıxılmaması heç bir məna kəsb etmir.

Həmçinin ezamiyyə xərclərinin normadan artıq hissəsi üçün faktiki sənədlər təqdim olunduğu halda da həmin artıq hissə gəlir vergisinin məqsədləri üçün fiziki şəxsin gəlirlərinə (muzdlu işlə əlaqədar gəlirlərinə, madddə 99) aid edilməməlidir. Çünki, Vergi Məcəlləsinin 98.3-cü maddəsinə görə faktiki ezamiyyə xərclərinin əvəzinin ödənilməsi gəlirə daxil deyildir və eyni zamanda bu Məcəllənin 102.1.14.2-ci maddəsinə görə qanunvericiliklə müəyyən edilmiş ezamiyyə xərclərinin (gündəlik yemək xərcləri, kommunal xərclər və nəqliyyat xərcləri) məbləğləri gəlir vergisindən azaddır. 98.3-cü maddədə «faktiki ezamiyyə xərclərinin» dedikdə, sənəd əsasında faktiki ezamiyyə xərcləri nəzərdə tutulur. Əgər işçi heç bir sənəd təqdim etmədiyi halda normalardan artıq xərclədiyi vəsait onun muzdlu işlə əlaqədar gəlirlərinə aid edilməlidir. 102.1.14.2-ci maddədə də «ezamiyyə xərclərinin məbləğləri» dedikdə sənəd əsasında gündəlik yemək xərcləri, kommunal xərclər və nəqliyyat xərcləri nəzərdə tutulur.

Deməli, QHT donorlardan aldığı qrant vəsaitləri üzrə büdcə xərclərində ezamiyyə xərclərini normalardan artıq nəzərdə tuta bilər.

Ancaq bir neçə maraqlı məqamlar vardır.

QHT-lər qrant layihələrinin yerinə yetirilməsi üçün tərtib olunan büdcədə bəzən «ezamiyyə», bəzən də lsəfər» xərcləri kimi maddələr göstərirlər. Ona görə də ezamiyyə və səfər anlayışları arasında hansı fərqlərin olduğunu aydınlaşdırmaq lazımdır. İlk baxışda hər iki ifadə eyni məna daşıya bilər. Ezamiyyə qaydalarında göstərilmişdir ki, işçinin daimi iş yerindən muəyyən olunmuş müddətə başqa yerə xidməti tapşırığı yerinə yetirmək üçün getməsi xidməti ezamiyyət sayılır. Deməli ezamiyyə proseslərində yalnız işçi iştirak edə bilər və burada mütləq xidməti tapşırığın yerinə yetirilməsi nəzərdə tutulur. «Səfər» anlayışı ümumi mənada işlənməlidir. «Səfər» anlayışı, ümumi qaydada səfərə çıxma, daimi yaşayış yerindən ayrılıb qərib bir yerə yollanmaq kimi başa düşülə bilər. Səfərin iştirakçıları istənilən fiziki şəxs, yəni işçi və ya başqası da ola bilər. Səfər zamanı hər hansı normalar nəzərdə tutulmaya bilər. Məsələn, turizm şirkəti tərəfindən müştərilərin səfəri, qonaq səfərləri, müxtəlif layihələrin yerinə yetirilməsi zamanı ekspertlərin dəvəti və ya göndərilməsi ilə bağlı səfərlər də səfər anlayışına aiddir.

Qrant layihələrinin yerinə yetirilməsi və ya hər hansı digər sosial tədbirlərin həyata keçirilməsi zamanı kənar ekspertlərin, yəni işçi hesab edilməyən fiziki şəxslərin səfər və ya ezamiyyə xərclərinin maliyyələşdirilməsi ezamiyyə qaydalarına zidd ola bilər. Əgər qaydalarda yalnız işçinin, yəni əmək müqaviləsi (kontrakt) bağlanmaqla iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxsin xidməti tapşırığı yerinə yetirməsi ilə bağlı göndərilməsi ezamiyyə sayılırsa, deməli, digər hər hansı müqavilə (məsələn, mülki hüquqi xarakterli müqavilə) üzrə çalışan fiziki şəxslərin ezamiyyətə göndərilməsi qaydalara görə ezamiyyə əməliyyatı sayılmamalıdır. Yuxarıda göstərdik ki, QHT-lər üçün ezamiyyə xərclərinin normalaşdırılması heç bir məna kəsb etmir. Çünki burada mənfəət vergisi məqsədləri mövcud deyildir. Ona görə də layihə büdcəsində ezamiyyə əvəzinə səfər xərcləri nəzərdə tutulması daha məqsədəmüvafiqdir.

Səfər xərcləri adı altında heç bir məhdudiyyətin və ya normanın olmadığını düşünərək səfər və ya ezamiyyə ilə bağlı xərclərin tərkibində səfər və ya ezamiyyə əməliyyatlarına xas olmayan müxtəlif xərclərin nəzərdə tutulması baş verə bilər. Məsələn, səfər zamanı yemək xərclərinə əlavə olaraq spirtli ickilərin və ya daha dəbdəbəli otellərdə yataq xərcləri və restoranlarda yemək xərcləri, səfər iştirakçısının şəxsi xərclərinin ödənilməsi, taksilərdən istifadə xərcləri və sair nəzərdə tutula bilər. Bu kimi xərclərin məhz layihənin yerinə yetirilməsində müstəsna xərc olması şübhə doğuran məqamdır. Yəni, həddindən artıq ifrat xərclər Vergi Məcəlləsinin 109.5-ci madəsinə əsasən fiziki şəxsin fərdi istehlakla bağlı olan xərcləri kimi qiymətləndirilə və gəlir vergisinə cəlb oluna bilər.

Lakin, QHT Dövlət Dəstəyi Şurası (DDŞ) tərəfindən verilən qrant büdcələrində ezamiyyə xərcləri norma daxilində nəzərdə tutulmalıdır. Normalarda göstərilir ki, büdcədən maliyyələşdirilən müəssisə, idarə və təşkilatlar istisna olmaqla digər təşkilatlar ezamiyyə xərclərinin ödənilməsi üçün öz sərəncamlarında qalan mənfəət hesabına bu qərarla müəyyən edilmiş normalardan əlavə vəsait ayıra bilərlər. Deməli, QHT DDŞ-na təqdim olunan layihə büdcələrində vəsaitlər dövlət büdcəsindən maliyyələşdirildiyinə görə layihə büdcəsində normalardan əlavə ezamiyyə vəsaiti nəzərdə tutulmamalıdır.

| APREL | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | | | 1 |
| **2** | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 |
| **16** | 17 | 18 | 19 | **20** | 21 | 22 |
| 23 | 27 | 25 | 26 | 27 | 28 | 29 |
| 30 | | | | | | |

## vergi təqvimi

Qeyd: ***Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.***

**Ödənilən vergi:**

**2 aprel** - «1», «2», «5» və «7».
**16 aprel** - «(1) və (2)».
**20 aprel** - «3», «4», «8», «9», «10.1», «10.2», «10.3» və «11».

**«1» - Gəlir vergisi:** Gəlir vergisi üzrə hesabat dövrü təqvim ilidir. Azərbaycan Respublikasında daimi nümayəndəliyi olan, vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər, ödəmə mənbəyində vergiyə cəlb olunması nəzərdə tutulmayan (tutulması mümkün olmayan) gəlirləri olan fiziki şəxslər, yaxud Azərbaycan Respublikasının hüdudlarından kənarda gəlir, o cümlədən royaltidən gəlir əldə edən rezident fiziki şəxslər hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanlarına bəyannamə verir və həmin vaxtadək illik gəlir üzrə son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) gəlir vergisini dövlət büdcəsinə ödəyirlər.

**«2» - Mənfəət vergisi:** Mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Mənfəət vergisinin ödəyicisi hesab edilən rezident müəssisələr, habelə Azərbaycan Respublikasında daimi nümayəndəliyi olan, vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) vergini ödəyir və qeydiyyatda olduğu vergi orqanına bəyannamə təqdim edir.

Bələdiyyə mülkiyyətində olan müəssisələr mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə), digər müəssisələr isə dövlət büdcəsinə ödəyirlər.

**«(1) və (2)» - Gəlir və Mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.

_Birinci metod:_ Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.

_İkinci metod:_ Cari rübdəki gəlirin məbləğini keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyən edilir.

Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda vergi orqanı birinci metodu tətbiq edir.

Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir.

Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilndə fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«5» - Əmlak vergisi:** Müəssisənin əmlak vergisi üçün hesabat dövrü təqvim ili sayılır. Əmlak vergisinin ödəyicisi olan müəssisə əmlak vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına verir və vergini həmin müddətədək son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) dövlət büdcəsinə ödəyir.

**«7» - Yol vergisi:** Müəssisənin yol vergisi üçün hesabat dövrü təqvim ili sayılır. Azərbaycan Respublikasının ərazisində təqvim ilinin sonu vəziyyətinə mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan hüquqi şəxslər yol vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına təqdim edir və həmin müddətədək hesablanmış vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üzrə hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxs hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənməli olan verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.

Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«10.2» - Sığorta müqaviləsi vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.

Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.

Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı olan digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürülməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«11» - Dövlət rüsumu:** Dövlər rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edildilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.

«Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.

# Əmanətlərin verilməsi barədə vətəndaşlar məlumatlandırılır

Xəbər verdiyimiz kimi, ölkə başçısı 14 mart 2012-ci il tarixli «Keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankının Azərbaycan Respublikasının vətəndaşları olan əmanətçilərinə fərdi birdəfəlik ödəmələrin verilməsi haqqında» Fərman imzalamışdır. Fərmanda toxunulan məsələlər barədə qəzetimizin əvvəlki nömrəsində geniş məlumat vermişdik. Bu nömrəmizdə isə fərmanda öz əksini tapan məsələlərdən biri - birdəfəlik ödəmələrin verilməsi zamanı əmanətçilərin müraciətləri ilə bağlı operativ tədbirlərin görülməsi və onları maraqlandıran sualların cavablandırılması məsələsinə toxunacağıq. Belə ki, fərmanın imzalanmasından sonra Maliyyə Nazirliyində «Qaynar xətt» (012 404-46-03) xidməti, eyni zamanda nazirliyin rəsmi internet səhifəsində onlayn müraciət bölməsi fəaliyyətə (emanet_info@maliyye.gov.az) başlamışdır. Bu xidmətlər vasitəsilə vətəndaşlardan gələn çoxsaylı suallar operativ şəkildə cavablandırılır. Maliyyə Nazirliyindən əldə etdiyimiz məlumata görə, emanet_info@maliyye.gov.az ünvanına 15-18 mart tarixlərində 7 mindən çox müraciət daxil olmuşdur. «Qaynar xətt» xidmətinə hər gün daxil olan bütün müraciətlər isə mütəxəssislər tərəfindən dinlənilir və onlar operativ şəkildə cavablandırılır.

Suallar içərisində oxucularımızı maraqlandıran məqamların olduğunu nəzərə alaraq, onların bəzilərini təqdim edirik. Vətəndaşları ən çox maraqlandıran məqam - əmanətlərin verilməsinin ilk növbədə hansı kateqoriyalara şamil edilməsidir.

Məlum olduğu kimi əmanətçilərə fərdi birdəfəlik ödəmələrin verilməsi 2012-ci ilin iyun ayının 1-dən başlayır və 2013-cü il 31 dekabr tarixinədək başa çatdırılır. Fərmanda hər hansı kateqoriyanın bu vəsaitləri ilk alması müəyyən edilməyib. Fərmanın şamil edildiyi bütün şəxslər qeyd olunan müddətdə müraciət edərək ödəmələri ala biləcəklər.

1 yanvar 1992-ci ildən sonra qoyulan əmanətlərə görə fərdi birdəfəlik ödəmələrin verilməsi məsələsi də vətəndaşları düşündürən suallar içərisindədir. Suala cavab olaraq qeyd edilir ki, fərdi birdəfəlik ödəmələr 1 yanvar 1992-ci il tarixinə qədər qoyulan əmanətlərin qalıqlarından asılı olaraq hesablanır və həmin tarixdən sonra qoyulan əmanətlərə şamil edilmir.

Cavabını gözləyən digər bir məsələ isə dünyasını dəyişən əmanətçilərlə bağlıdır. Varislər hansı sənədləri təqdim etməklə öz vəsaitlərini ala bilmələri ilə maraqlanırlar. Bu məsələyə də aydınlıq gətirilib. Belə ki, vəfat etmiş əmanətçinin əmanət qalıqlarına görə ödəmələrin onun vərəsəsinə ödənilməsi üçün ərizəyə vərəsələrin miras əmlaka hüquqları barədə sənəd və ya bu barədə müvafiq məhkəmə qərarı əlavə edilməlidir. Vərəsəliyin müəyyən edilməsi isə Mülki Məcəlləyə uyğun olaraq həyata keçirilir.




Ödəmələrin hansı qaydada alınmasına gəlincə isə qeyd edək ki, vəsaiti əmanətçinin arzusu ilə nağd, yaxud, digər hesablara köçürülmə yolu ilə almaq mümkün olacaq. Ödəmələrin Azərbaycan vətəndaşı olmayan, vətəndaşlıqdan imtina edən və s. şəxslərə ödənilməsi məsələsi də müraciətlər sırasındadır. Qeyd edək ki, ödəmələr yalnız Azərbaycan vətəndaşlığı haqqında qanunda göstərilən meyarlara uyğun olan və Azərbaycan Respublikasında yaşayış yeri üzrə qeydiyyatda olan Azərbaycan vətəndaşları ala bilərlər. Bu zaman onlar Azərbaycan vətəndaşlığını təsdiq edən şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

Xarici ölkədə yaşayan Azərbaycan vətəndaşları olan əmanətçilərin ödəmələri necə əldə etməsinə gəlincə isə qeyd edilir ki, mövcud qanunvericiliyə uyğun olaraq təsdiq olunmuş və Azərbaycan Respublikası tərəfindən tanınan etibarnaməyə ona əlavə olunan digər müvafiq sənədlər təqdim edilməklə fərdi birdəfəlik ödəməni bankdan götürmək olar. Digər bir məsələ isə, 1992-ci il 1 yanvar tarixinədək ölkəni tərk edən əmanətçilərə birdəfəlik ödəmələrin şamil olunub-olunmamasıdır. Bu suala cavab olaraq qeyd edilir ki, bu tarixədək Azərbaycandan köçüb gedən əmanətçilərə Azərbaycan Respublikası vətəndaşlığını saxladığı və vətəndaşın şəxsiyyət vəsiqəsini təqdim etdiyi təqdirdə onlara fərdi birdəfəlik ödəmələrin verilməsində hər hansı məhdudiyyət yoxdur.

Sonda onu da qeyd edək ki, əmanətlərin alınması zamanı sənədlərin saxtalaşdırılmasına, qanunsuz hazırlanmasına və saxta sənədlərdən istifadəyə görə ölkə qanunvericiliyində cinayət məsuliyyəti nəzərdə tutulmuşdur.

**Aytən NƏBİYEVA**

xarici ölkələrdən vergi xəbərləri

# Fransada ƏDV-nin dərəcəsi artıb



Fransa prezidenti ölkədə ƏDV-nin dərəcəsinin 19,6%-dən 21,2%-ə qədər artımını, eləcə də fransız müəssisələrinə maliyyə dəstəyi göstərilməsi və işsizliklə mübarizə üçün bir sıra tədbirlər həyata keçiriləcəyini elan edib. Onun sözlərinə görə, ƏDV-nin artımı 2012-ci il oktyabrın 1-dən qüvvəyə minəcək. Bu artım dövlət büdcəsinə əlavə 13 milyard avro gəlir gətirəcək. Güzəştli ƏDV dərəcələri isə dəyişməz qalacaq.

Fransa prezidentinin fikrincə, ƏDV dərəcəsinin artımı əməyin dəyərinin azalmasına və fransız müəssisələrinin rəqabətə davamlılığının artmasına imkan yaradacaq. O, Almaniyanı nümunə göstərərək bildirib ki, eyni məqsədlər üçün 2007-ci ildə bu ölkədə də ƏDV-nin dərəcəsi artırılmışdı. Fransa prezidenti qeyd edib ki, qiymətlərin artacağını düşünmür, çünki qiymətlərin səviyyəsini rəqabət müəyyən etməlidir. Prezident onu da bildirib ki, avqustda Fransada maliyyə əməliyyatlarına yeni vergi tətbiq ediləbilər. Daha bir addım isə sosial vergilərin dərəcəsinin artırılması olacaq.

Dövlət başçısının sözlərinə görə, hökumət sənayenin inkişafının maliyyələşdirilməsi üçün 1 milyard avro kapitalı olan dövlət bankı yaradacaq. Bankın yaradılması sənayenin inkişafına və işsizliyin artması problemlərinin həllinə yönəldilmişdir.

## BVF İsrailə daşınmaz əmlaka vergiləri qaldırmağı tövsiyə edib

Beynəlxalq Valyuta Fondunun ekspertləri maliyyə naziri Yuvalyu Ştaynisə və İsrail Bankının rəhbəri Stenli Fişerə təqdim etdikləri hesabatda, sosial etirazlara baxmayaraq, ölkədə vergiləri qaldırmağın zəruri olduğunu bildiriblər. Ekspertlərin rəyinə görə, artıq əlamətləri müşahidə olunan növbəti qlobal iqtisadi böhranı yalnız müəyyən ehtiyata malik olmaqla və dövlət borcunun həcmini artırmamaqla aşmaq olar.

Hesabatda deyilir ki, İsraildə son illər ərzində daşınmaz əmlaka qiymətlərin 50% artımı müşahidə olunur. Ekspertlər İsrailə tövsiyə edirlər ki, bahalaşmanın növbəti dalğası baş verərsə, ikinci mənzilin alınmasına tətbiq olunan vergiləri əhəmiyyətli dərəcədə yüksəltsin. Hazırda bu verginin dərəcəsi 16% təşkil edir.

## Latviya seymi vergi amnistiyası haqqında qanun layihəsini qəbul edib

Latviya Seymi yerli biznesə dəstək məqsədilə vergilərə dair yeni qanun layihəsini bəyənib. Sənəd əsas borc məbləğini ödədiyi halda, vergi borcu olan şəxslərin faizlərin və cərimələrin əksər hissəsindən azad edilmələrini nəzərdə tutur.

Qəbul edilmiş qanun bu il iyunun 1-dən qüvvəyə minəcək. Qanun gəlir vergisi, müəssisələrin mənfəətindən vergi, əlavə dəyər vergisi, aksiz və gömrük vergiləri üzrə borclara aid ediləcək. Vergi amnistiyasından 2010-cu ilin sentyabrın 1-nə qədər borcu yaranmış vergi ödəyiciləri faydalana biləcəklər. DövləT Gəlirlər Xidmətinin proqnozlarına görə, qanun təxminən 110 min vergi ödəyicisini əhatə edəcək.

# İspaniya vergi intizamını gücləndirir

İspaniyanın Baş Nazirinin müavini Sorayya Saens de Santamariya bildirib ki, 2012-ci ildə hökumət dövlət xərclərini əhəmiyyətli dərəcədə azaltmaq niyyətindədir, İspaniya vergi xidməti isə şirkətlərin və fərdi vergi ödəyicilərinin hesabatlarının daha dəqiq araşdırılması üçün böyük sayda vergi yoxlamaları keçirməklə vergi ödəmələrindən yayınmanın qarşısının alınması tədbirlərini gücləndirəcək. Ehtimal edilir ki, yoxlamalar zamanı vergi xidməti əməkhaqlarının işçilərə nağd pulla ödənilməsi hallarını üzə çıxarmaq məqsədilə özəl şirkətlərin əməkhaqqı ödənişlərini araşdıracaq. İspaniyada rəsmi işsizliyin dərəcəsi hazırda 21%-ə yaxınlaşır. Vergi xidməti isə hesab edir ki, işsiz hesab edilən ölkə vətəndaşlarının müəyyən hissəsinin, əslində, daimi iş yerləri var, amma onlar öz əməkhaqlarını fərdi vergi bəyannamələrinə daxil etmədən nağd şəkildə alırlar.



S.D.Santamariyanın sözlərinə görə, yeni vergi nəzarəti tədbirləri İspaniya hökumətinə artıq bu il gizlədilmiş vergi öhdəlikləri üzrə əlavə olaraq ən azı 8,17 milyard avro vəsait əldə etmək imkanı verəcək. Baş nazir müavini dövlət xərclərinin ixtisarı sırasında, əsasən, dövlət müəssisələrinin maliyyələşdirilməsi həcmlərinin azalması ilə bağlı planları qeyd edib. Bu proqramın tərkib hissəsi kimi ən azı 500 zərərlə işləyən dövlət müəssisəsinin bağlanılması planlaşdırılır.

idman xəbərləri

# Avropa çempionatında Azərbaycanı 9 idmançı təmsil edəcək

Aprelin 6-16-da Türkiyənin Antalya şəhərində ağır atletika üzrə Avropa çempionatı keçiriləcəkdir. Çempionatda iştirak edəcək Azərbaycan millisinin heyəti açıqlanmışdır. Baş məşqçi Nizami Paşayevin rəhbərliyi altında ölkəmizi Valentin Xristov (56 kq), Sərdar Həsənov, Əfqan Bayramov (hər ikisi 69 kq), Namiq Cəlilov (85 kq) və İntiqam Zairov (94 kq) təmsil edəcəklər.

Qadınların yarışında isə Silviya Angelova (48 kq), Boyanka Kostova (58 kq), Alyona Kirilova (69 kq) və Yuliya Dovqal (75 kq-dan yuxarı) mübarizə aparacaqlar. Yarış London Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyır. Qeyd edək ki, kişilərdən ibarət ağır atletika üzrə millimiz Olimpiya Oyunlarına artıq 5 lisenziya qazanmışdır.

Çempionatda həmyerlimiz Vahid Nəzərov Azərbaycanı hakim kimi təmsil edəcək. O, həmçinin, aprelin 6-7-də keçiriləcək hesabat-seçki konfransında Avropa Ağır Atletika Federasiyasının Texniki Komitəsinə öz namizədliyini müstəqil referi kimi irəli sürəcəkdir.

# Aliyə Qarayevanın növbəti uğuru

Azərbaycan gimnastı Aliyə Qarayeva Fransanın Tye kantonunda gimnastika üzrə Qran-pri yarışlarının ikinci mərhələsində gümüş mükafat qazanmışdır. Azərbaycan Gimnastika Federasiyasının məlumatına görə, milli komandamızın lideri rusiyalı gimnastlarla kəskin rəqabət şəraitində lent ilə hərəkətlərin finalında ikinci yeri tutmuşdur. Qarşıdan gələn iri yarışlar ərəfəsində bu mükafat xüsusi əhəmiyyət kəsb edir. Fəxri kürsünün bütün pillələrində rusiyalı gimnastların dayanması faktını nəzərə alsaq, deyə bilərik ki, A.Qarayeva, əslində, çoxnövçülükdə də ikinci nəticə göstərmişdir.

Qran-pri mərhələsində ölkəmizin digər təmsilçisi olan qrup komandası o qədər də yüksək nəticə göstərə bilməmişdir. Hakimlərin qərarı ilə çoxnövçülükdə yalnız 11-ci yerlə kifayətlənməli olmuş komandamız bazar günü keçirilən final yarışlarında iştirak etmək hüququnu itirmişdir.

Milli yığma komandanın baş məşqçisi Mariana Vasilyevanın dediyinə görə, qızlarımız ruhdan düşməmişlər və aprelin 13-15-də Pesaroda (İtaliya) keçiriləcək Dünya Kuboku mərhələsində uğurla çıxış edəcəklərinə ümid bəsləyir.



## Cüdoçularımız 3 medal qazanmışlar

Ukraynanın paytaxtı Kiyevdə yeniyetmələr arasında cüdo üzrə Avropa Kuboku yarışları keçirilmişdir.

Yeniyetmə cüdoçularımız yarışda 1 qızıl, 1 gümüş və 1 bürünc medal qazanmışlar. İki gün davam edən yarışda İlkin Məmmədov (60 kq) qızıl, İlkin Babazadə (55 kq) gümüş, Leyla Əliyeva (40 kq) isə bürünc medala sahib olmuşlar. Cüdoçularımız məşqçilər Rəşad Həsənov və Rəşad Məmmədovun rəhbərliyi altında mübarizə aparmışlar. Bu nəticə ilə Azərbaycan 28 ölkə arasında 5-ci olmuşdur.

## Beynəlxalq «Prezident Kuboku - 2012» reqatasında yüksək nəticə

Azərbaycan Milli Avarçəkmə Federasiyası Mingəçevirdə keçirilən Beynəlxalq «Prezident Kuboku - 2012» reqatasında kayak və kanoeçilərin mübarizəsinə yekun vurmuşdur. Kayakçıların yarışında Azərbaycan, Türkiyə, Ukrayna və Gürcüstanın kişi və qadın təmsilçiləri mübarizə aparmışlar. Kanoeçilərin mübarizəsində isə Azərbaycan və Gürcüstan idmançıları qarşılaşmışlar, onlar 1000, 500 və 200 metr məsafəyə yürüşlərdə iştirak etmişlər. Azərbaycan idmançıları bütün yürüşlərdə mükafatçılar sırasında yer almışlar.

## Şahmatçımız 2013-cü ildə keçiriləcək dünya kuboku yarışlarına vəsiqə qazanmışdır

Bolqarıstanın Plovdiv şəhərində kişilər arasında şahmat üzrə Avropa çempionatı yekunlaşmışdır. Yarışlarda ölkəmizi təmsil edən Vasif Durarbəyli son turda rusiyalı həmkarı Mixail Kobaliya ilə heç-heçə oynayaraq 7,5 xal toplanmış və 21-ci yerdə qərarlaşmışdır. Bu göstərici sayəsində o, 23 ən yaxşı şahmatçı siyahısına daxil olmuş və gələn il keçiriləcək dünya kuboku yarışlarında iştirak etmək hüququ qazanmışdır.



**Soldan sağa:** 1.Rusiya ordusunda qulluq etmiş, Azərbaycan milli ordusunun yaradıcılarından olan azərbaycanlı general; 6.Türkiyədə vilayət; 8.Azərbaycanda informasiya agentliyi; 9.Mərhumun xatirəsinə həsr olunmuş dini matəm məsası; 10.Çayın qarşısını kəsərək suyun səviyyəsini qaldırmaq və su ambarı yaratmaq məqsədilə tikilən hidrotexniki qurğu; 12.İxtira, kəşf; 14.Riyaziyyatda kəsrin hədlərindən biri; 15.Cərimə, penya; 18.Ard; 19.Qaymağın süd turşusu bakteriyaları ilə emalından alınan söd və yeyinti məhsulu; 21.Müəyyən ictimai sinfin siyasi məqsəd və mənafeyini təmsil edən təşkilat; 22.Çirkli pal-paltar; 23.Lakin, ancaq; 25.Bakıda qəsəbə; 26.Hər hansı gerçək və ya təsəvvür edilən təhlükə, iztirab qarşısında əmələ gələn hiss; 28.İraqda azərbaycanlılar yaşayan şəhər; 30.Ərəbistan və Şimali Afrika səhralarında güclü leysan yaüşlardan sonra müvəqqəti suyu olan dərələr; 32.XX əsrin əvvəllərində Bakıda fəaliyyət göstərmiş gizli mətbəə; 34.İtalyanlarda qisas, «qanı qanla yuma» prinsipi; 35.Bağlayıcı söz; 36.Qəlb, ürək - Köks; 37.Dram əsərləri yaçan yaçıçı.

**Yuxarıdan aşağı:** 1.Hərbi qərargah; 2.Böyük Britaniyada bir sıra ali və yerli vəçifəli şəxslərin adlarının tərkib hissəsi; 3.Arçusuna çatmamış; 4.18 ay; 5.Dafn bir hissəsi; 6.Bir sıra müsəlman ölkələrində xösusilə fərqlənən hərbi sərkərdələrə verilən fəxri titul; 7.Nəqliyyat vasitəsinin sürətini ölçən cihaz; 11.Özbək dilində kişiyə müraciət forması; 13.Qafqaz Albaniyasının hökmdarlarından biri, Mehranilər sülaləsinin ən parlaq nümayəndəsi; 16.Qafqazda dağ silsiləsi; 17.Naxçıvanda tarixi qala; 18.Kənd təsərrüfatı aləti; 19.Yaxın qohum; 20.«Qaraca qız» filmində obraz; 21.Hərbi rütbə; 24.Bir çox ərçaq məhsullarının konservləşdirilmiş adı; 27.Çinlilərin özlərinə verdikləri ad; 28.Çambaqkimilər fəsiləsindən tərəvəç bitkisi; 29.Çəkikimilər fəsiləsindən balıq yarımnövü, «Ziyad» balığının başqa adı; 31.Qənnadı məmulatı; 32.Fransada şəhər və futbol klubu; 33.Spirtli içki.

Tərtib etdi: Məhəmməd Əli

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Soldan sağa:** 5.Karpat; 8.İmarət; 9.Əsmər; 10.Ekoloq; 11.Şamama; 12.İkona; 13.Rəqib; 16.Dalan; 19.STV; 21.Kəmalə; 22.Əlişir; 23.Nal; 25.Bilək; 28.; 31.Antep; 32.Platin; 33.İmanov; 34.Aqrar; 35.Tanker; 36.Səkkiz. **Yuxarıdan aşağı:** 1.Bankir; 2.Epiloq; 3.Xammal; 4.Dərman; 6.Təqib; 7.İmport; 8.İrşad; 14.Əcəmi; 15.İcarə; 17.Alibi; 18.Abidə; 19.Sən; 20.Vəl; 24.Astara; 25.Bolqar; 26.Liteks; 27.Kanar; 28.Spirs; 29.Franko; 30.Tropik.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu

Qeydiyyat şəhadətnaməsi №R148.
VÖEN: 1300327481.
H/h 12-12258-1
Atabank ASC. Kod: 507581.
VÖEN: 9900006651.

M/h: 0137010032944
SWIFT BIK ATAZAZ-22.

Ünvan: AZ 1073, Bakı ş., Landau küç.16

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnir və «CBS Polygraphic Production» mətbəəsində çap olunur.

Tiraj: 16000

# Barokko memarlığı

şedevrlər



Donato Bramante «Müqəddəs Pyotr kilsəsi». Roma, İtaliya.

Qəzetimizin keçən buraxılışında Avropa barokko rəssamlığı barədə məlumat vermişdik. Bu üslubun yer aldığı ən mühüm sənət sahələrindən biri də memarlıqdır. XVII - XVIII əsrlər Avropa mədəniyyətinə məxsus barokko memarlığının kökləri İntibah dövrünə gedib çıxır. İlk böyük və möhtəşəm memarlıq ansamblını Vatikanda Donato Bramante (1444-1514) adlı memar yaratmışdı.

Barokko üslubunun memarlığa tətbiqi ilə yeni əyri xətt formaları meydana çıxmış, dolğun və qəliz rəng çalarlarının istifadəsinə başlanmışdır. Həmin dövrdə parklarda fəvvarələrdən və fişənglərdən ibarət şəlalələr yaradılır, interyerdə güzgülərə, parketə, zərxaraya böyük diqqət yetirilirdi.

Bu üslubun əsas əlaməti - «naz-nemət içərisində üzmək», insanın vücudu və ruhu üçün maksimal rahatlıq yaratmaqdır.

Barokko üslubu binaların əsas giriş qapısında mərmər pilləkənlərin, otaqların arasında incəsənət əsərləri ilə bəzədilən ensiz dəhlizin yaradılmasına üstünlük verir. Bu üslubun xüsusiyyətlərindən biri məkan illüziyalarıdır. Barokko memarlıq üslubunda interyerdə müxtəlif şəkillərin, naxışların çəkilməsi üçün güzgülərdən, tavandan, eləcə də divarlardan geniş istifadə edilir. Divarlar qobelenlə (divar xalçaları) ilə də örtülə bilər. Xalçaların, zərxaranın, həmçinin bahalı çilçırağın bolluğu təmtəraqlı pafos yaradır. Əyri xətlər və dəyirmi konturlar hesabına dinamika və gözəllik əldə edilir. Bahalı mebel dəbdəbə və əzəməti artırır.

Barokko memarları çox zaman heykəltəraşlıq əsərlərindən istifadə edirdilər. Adi sütunlar tez-tez telamon və karitiadlar - kişi və ya qadın fiqurlu sütunlarla əvəz edilirdi.

Barokko üslubunun daha bir fərqləndirici cəhəti də çox iri ölçülərdir. Belə ki, pəncərələrin, qapıların ölçüləri insan boyundan on dəfə çox və daha artıq olurdu.

Barokko üslubunda yaradılmış bir çox tikililər çox yaxşı saxlanmışdır və hazırda Avropanın bir sıra şəhərlərinin bəzəyidir.

Barokko üslubunun köklərinin çox qədimə getməsinə baxmayaraq, bu üslubun ayrı-ayrı elementləri əsrdən-əsrə keçərək, zamandan-zamana memarlıq və interyerə qayıdır. Üslubun əbədiliyi çox asan izah olunur: bolluğu, həmçinin təmtərağı nəzərə çarpdıran elementlərə hər dövrdə yüksək tələbat olmuşdur.

# Bitki çayları

sağlam hayat tarzi

Bu il nə qədər geciksə də, artıq bahar qapımızın ağzındadır. Yazın gəlişi ilə birlikdə insan orqanizmini yaşadığımız hərəkətli zəmanənin gərginliklərindən, sağlamlığa mənfi təsir göstərən stresdən təmizləmək və maddələr mübadiləsini sürətləndirmək üçün mütəxəssislər bitki çaylarından istifadə etməyi məsləhət görürlər. Qəzetimizin bu buraxılışında hər birimizin asan hazırlaya biləcəyi bitki çayı reseptini diqqətinizə çatdırırıq.



**Lazım olanlar:**

- 1 ədəd limon
- 1 çay qaşığı kəklik otu
- 1 çay qaşığı lavanda
- 1 yemək qaşığı nanə
- 1 çay qaşığı bal

Limonun qabığını rəndədən (tyorkadan) keçirdikdən sonra həmin qabıq nanə, lavanda və kəklikotu ilə qarışdırılır. Bu qarışıq əvvəlcədən qaynadılmış yarım litr suya əlavə olunur və 15 dəqiqə müddətində dəmlənir. Dəm alandan sonra süzülür. Çayı içməzdən əvvəl ona bal əlavə olunur.

İstəyinizdən asılı olaraq bu çaydan gündə 2-3 fincan içə bilərsiniz. Nuş olsun.

# İstisu

sarvatlarimiz

***Oxucu təklif edir***

***İstənilən qəzetin fəaliyyətini zamanın və oxucuların tələblərinə uyğunlaşdırmaq, mətbuatda qaldırılan məsələləri öz ünvanına düzgün çatdırmaq üçün ən faydalı vasitələrdən biri oxucu ilə qəzet arasında canlı əlaqələrin yaranmasıdır. Bu baxımdan, Quba rayonundan olan hörmətli oxucumuz Həzrətqulu Əhmədovun redaksiyamıza əhatəli məktub göndərərək öz təkliflərini bildirməsini müsbət qiymətləndirir, ona dərin təşəkkürümüzü bildiririk. Ölkəmizdə mövcud olan nadir təbiət hadisəsi – palçıq vulkanları haqqında qəzetimizdə dərc olunmuş bir məqaləyə öz münasibətini bildirən oxucumuz öz səhifələrimizdə turizm əhəmiyyətli mövzulara daha geniş yer ayırmağımızı, eyni zamanda, turizm biznesinə aid vergi münasibətləri barədə yazılar verməyimizi xahiş edir, bizə olduqca maraqlı təkliflər verir. Onun faydalı təkliflərindən birini nəzərə alıb, qəzetimizin bu buraxılışından başlayaraq Azərbaycanın ən qiymətli sərvətlərindən olan mineral sularımız barədə silsilə yazılar verməyi qərara almışıq. İlk yazını vaxtilə süfrələrimizin bəzəyi olan «İstisu»ya həsr etmişik...***

Azərbaycanda istisu bulaqları çoxdur. Onlardan ən məşhuru, heç şübhəsiz ki, Kəlbəcər rayonu ərazisində olan mineral mənbədir. 1993-cü ildən Ermənistan ordusunun işğalı altında olan istisu bulağı Kəlbəcərin qərb hissəsində - silsilə dağ yamaclarındadır. Öz kimyəvi tərkibi və fiziki xüsusiyyətlərinə görə bu su dünyada məşhur olan Karlovı-Varı (Çexiya) bulaqlarının eynidir, bir çox digər xüsusiyyətlərinə görə isə dünyada yeganədir. İstisu yerdən çıxan anda təbii hərarəti 58,8$^{O}$C olur. Cəmi mineralların sayı 6,7 qrama çatan 1 litr suyun tərkibi litium, brom, yod, mərgümüş, fosfor, sink, mis, nikel, maqnezium, dəmir və s. kimyəvi maddələrlə zəngindir. Bu bulaqlardan biri 8 metrədək hündürlükdə fəvvarə vurur. İstisu mənbələrindən hər il 3 milyard 963 mln. litr su çıxırdı. Sudolduran sexlər isə bunun cəmi 22 mln. litrindən istifadə edirdi, qalan 3 milyard 941 milyon 316 min litr su çaylara axıb gedirdi. «İstisu» mineral bulaq suyu hipertermal, karbon qazlı, hidrokarbonatlı-xloridli-sulfatlı-natriumludur. «İstisu» mineral mənbələri fəaliyyətdə olan 12 bulaqdan ibarətdir. «İstisu» kurortunda mədə-bağırsaq xəstəliyinə, maddələr mübadiləsi pozğunluqlarına, sinir sistemi, hərəkət orqanları və ginekoloji, uroloji xəstəliklərə qarşı müalicə aparılırdı. «İstisu» mineral bulaqlarının suyundan alınan duzlar xronik qəbizlik, qaraciyər, öd kisəsi, qastrit və s. xəstəliklərin müalicəsində faydalıdır.

İstisuda müalicə-istirahət zonasının yaranması Sovet hakimiyyəti qurulduqdan sonra, daha dəqiq desək, 1925-ci ildən Azərbaycan hökümətinin diqqət mərkəzində olmuşdu. Hələ 1926-cı ildə Respublika Ali İqtisad Soveti İstisudakı su mənbələrində istirahət-müalicə tikintiləri aparılması barədə qərar qəbul etmişdi və 1948-ci ildə İstisu ərazisində balneoloji kurort təşkil edilmişdi.



# NATO-nun ad günü

söz vaxtına çakar



1949-cu il aprelin 4-də Vaşinqtonda 12 dövlətin iştirakilə imzalanmış müqavilə əsasında müasir beynəlxalq münasibətlərdə mühüm rol oynayan Şimali Atlantika Müqaviləsi Təşkilatı (North Atlantic Treaty Organization - NATO) yaradıldımışdır. O vaxt Avropa ölkələrinə Sovet İttifaqı və kommunizmdən qorunmaq üçün ABŞ-ın təhlükəsizlik zəmanəti lazım idi. Sovet İttifaqının Qərbi Avropanı işğal etməsinə qarşı ABŞ-dan müdafiə təminatının alınması Vaşinqton sazişinin 5-ci maddəsində öz əksini tapıb. Bu maddəyə əsasən, NATO üzvü olan hər hansı ölkəyə hücum olardısa, bütün alyans üzvləri ona kömək etməli idilər. Lakin SSRİ-nin süqut etməsi ilə əlaqədar olaraq blok özünün Avropadakı əhatə dairəsini tədricən şərqə doğru genişləndirdi. Vaxtilə əks düşərgəni təmsil edən Polşa, Macarıstan, Çexiya, Bolqarıstan, Rumınya, Slovakiya, Sloveniya, Albaniya, Xorvatiya və Baltik ölkələri də bu bloka daxil oldular. Hazırda mənzil-qərargahı Brüsseldə yerləşən alyansın 26 üzvü var.

«Soyuq müharibənin» ən qızğın dövrlərində də NATO tərəfindən dəyişkənlik siyasətlərinin həyata keçirildiyi məlumdur. Misal üçün, 1952-ci il Lissabon Sammitində qəbul edilən «Məhdud müharibə strategiyası» və ya 1954-cü ildə qəbul edilən «Kütləvi zərbə strategiyası», eləcə də 1967-ci ildən etibarən tətbiq olunan «Çevik zərbə strategiyası» kimi sənədlər NATO-nun hər dövrün tələbinə uyğun dəyişmə təmayülünün göstəricisidir. Ancaq sənədlərin sərlövhələrindən də göründüyü kimi, «soyuq müharibə» dövründə strateji sənədlərin qəbul və icra edilməsi daha çox təşkilatın texniki-hərbi fəaliyyətlərinə işarə edirdi. «Soyuq müharibənin» başa çatmasından sonra Şimali Atlantika Alyansı fəaliyyətlərində texniki-hərbi sahə ilə yanaşı, siyasi-konseptual bazanın yaradılması meyli də müşahidə edilməyə başladı.

Azərbaycan Respublikasının xarici siyasətində əsas vəzifələrdən biri Avroatlantik məkana inteqrasiya olunmaqdır. Ölkəmiz 1994-cü ildən NATO-nun «Sülh naminə tərəfdaşlıq», 2004-cü ildən isə «Fərdi tərəfdaşlıq» proqramlarına qoşulub. Bu, Azərbaycanla hərbi ittifaq arasında əlaqələrin inkişafının mühüm göstəriciləridir. Ölkəmiz 1999-cu ildə NATO Parlament Assambleyasına müşahidəçi, 2002-ci ildən isə assosiativ üzv qəbul edilib. Azərbaycan Silahlı Qüvvələrinin birləşmələri Kosovo, İraq və Əfqanıstanda sülhməramlı qoşunların tərkibində fəal iştirak edir.

# E-kağızın kütləvi istehsalı

texnologiya



Müasir texnologiyaların həyatımıza gətirdiyi yeniliklər içində «elektron kağız», «elektron mürəkkəb», «elektron kitab» kimi anlayışlar son vaxtlar daha çox aktuallıq kəsb etməkdədir. Məsələn, ötən həftə LG şirkətinin təsviri elektron mürəkkəb (e-ink) texnologiyası əsasında hazırlanan elastik elektron kağız istehsalına başlaması haqqında məlumata Azərbaycanın informasiya kanallarında xüsusi yer verilmişdi və həmin məlumatla tanışlıq zamanı ağla gələn ilk sual isə bu idi: elektron kağız nədir?

Alim Nik Şeridon tərəfindən ixtira edilmiş elektron kağız (ingiliscə *e-paper*, *electronic paper*), ilk dəfə 1970-ci illərdə Kseroks şirkətinin Palo Alto Araşdırma Mərkəzində işlənib hazırlanmışdır. 1990-cı illərdə isə Cozef Yakobson elektron kağızın daha bir növünü, elektron mürəkkəbi (ingiliscə *e-ink*) ixtira etmişdir. Əslində, elektroforez hadisəsi əsasında işlənilib hazırlanmış «elektron kağız» elastik ekrandır. Bu texnologiya informasiyanı əks etdirərək, adi çap prosesinin imitasiyasını həyata keçirir. Ənənəvi yastı maye kristal ekranlardan fərqdi olaraq (onda təsvirin yaranması üçün matrisanın işıqlandırılmasından istifadə edilir) elektron kağızda təsvir işıqda əmələ gəlir, o, adi kağız kimi mətnin və qrafikanın təsvirini uzun müddət saxlaya bilir. Mühüm məqam isə budur ki, elektron kağız elekrik enerjisindən yalnız təsviri dəyişmək anında istifadə edir, oxunduğu vaxt elektrik enerjisi sərf etmir.

LG şirkətinin təqdim edəcəyi yeni məhsula gəldikdə isə, bu addım elektron kağızın hər bir kəsin həyatına və məişətinə daha da yaxınlaşması deməkdir. Yeni məhsul nazik və möhkəm olacaq: LG ekranının diaqonalı 6 düym, təsvir tutumu 1024x768 piksel təşkil edəcək. Bir çox müasir e-ink ekranlarından fərqli olaraq, şirkət elastik ekranlarda şüşə əvəzinə, plastik örtükdən istifadə edəcək. Qurğu şüşə e-ink ekranlardan üçdə bir dəfə nazik (qalınlığı 0,7 mm) və iki dəfə yüngül (çəkisi 14 qram) olacaq.

Şirkət ekranların istehsalını Çinin elektronika malları istehsalçılarına həvalə edəcək. Avropada hazır elastik ekranlı oxu qurğularının satışı aprel ayının əvvəlinə nəzərdə tutulub.

Əziz oxucular, bu məlumat üzərində ona görə ətraflı dayanmağı vacib saydıq ki, bir gün «Vergilər» qəzetinin də elektron kağızda nəşr olunacağını eşidəndə təəccüblənməyəsiniz...

# Qara pişiyin «günahı»

inanclar

***Dünya tarixində pişiklər yeganə canlıdır ki, əvvəlcə ilahiləşdirilmiş, sonradan şeytana bənzədilərək kütləvi şəkildə qırılmış, lap sonda isə bir daha onlara evlərinin yuxarı başında yer verilmişdir.***

Yola çıxan insanın önündən qara pişik keçməsinin uğursuzluq gətirəcəyi ilə bağlı inancın mənbəyi bizim eradan əvvəl 3000-ci illərə, qədim Misir mədəniyyətinə gedib çıxır. O dövrdə pişiklərə müqəddəsləşdirilmiş bir canlı kimi yanaşırdılar. Arxeoloji qazıntılar zamanı aşkar edilmiş qabartma divar təsvirlərinə əsasən, qara dişi pişiyin müqəddəs kult kimi qəbul edildiyi məlum olmuşdur. O dövrdə Misirdə pişikləri xəstəlikdən və ölümdən qorumaq üçün qanunlar qəbul edilmişdi. Evin pişiyinin ölməsi ailə üçün fəlakət sayılırdı. Ailənin kasıb və ya varlı olmasından asılı olmayaraq ölən pişiyi mumiyalayır, ən qiymətli parçalarla kəfənləyir, məzarında yanına qiymətli daş-qaşlar qoyaraq dəfn edirdilər.



Misirlilərin pişiyə olan bu qeyri-adi münasibətinin pişiklərin yüksək yerlərdən yıxılarkən heç bir zədə almadan salamat qurtarmaları ilə bağlı olduğu güman edilir. O zamanın inancına görə, pişiklərin doqquz canının olduğu qəbul edilmişdi.

Mədəniyyətlər inkişaf etdikcə insanların pişiyə olan rəğbəti daha da artmış, Hindistanda və Çində pişiklər insana ən yaxın canlı kimi tanınmışdı. Bugünkü inancın əksinə, o dövrdə birinin qarşısından pişik keçməsi həmin insanın xoşbəxtliyi hesab edilirdi.

Pişiklərə, xüsusi olaraq da qara pişiyə nifrət xristianlığın özündən əvvəlki mədəniyyətləri və inancları və onların rəmzlərini məhv etmək mövqeyindən irəli gəlmişdir. Orta əsrlərdə ilk dəfə pişiklərə İngiltərədə qənim kəsilmişdilər. O illərdə evlərində pişik saxlayanlar yalnız kasıb və yaşlı qadınlar idi və cadugərliyə qarşı qəddar mübarizə aparılırdı. Qara pişik saxlayan qadınların guya cadugər olduqları barədə kampaniyalar aparılır, şayiələr qızışdırılırdı. Xalq arasında qara pişiklərin şeytana çevrildiyi barədə qorxulu rəvayətlər dolaşmağa başlamışdı. Cadugərliyə qarşı nifrət güclü olduğuna görə bir çox qoca qarılar öz pişikləri ilə bərabər diri-diri yandırılırdı. Fransada kral XIII Luis bu hərəkata yasaq qoyana qədər hər ay minlərlə pişik yandırılmışdı. Bundan sonra pişiklərə münasibət yenidən mülayimləşməyə başladı. Yəqin boşuna deməmişlər ki, pişiklərin doqquz canı var...

**Müdriklər deyib ki...**

***«Gözün əvəzinə göz tökmək» prinsipi dünyanı kor qoyur.***

***Mahatma Qandi (1869—1948)***



Səhifəni **Məti OSMANOĞLU** aparır | *m.bayramli@taxes.gov.az*